# AZƏRBAYCAN DİLİ

DƏRSLİK

4

I hissə

2024-014

AZƏRBAYCAN DİLİ 4 DƏRSLİK 1-ci hissə

**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Aygün Qasımova, Farizə Nəbiyeva,
Yeganə Məmmədəliyeva, Həbib Kərimov,
Könül Doxolova, Süleyman Kərimov

Xüsusi məktəblərin
4-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# Azərbaycan dili

fənni üzrə

## DƏRSLİK

**I hissə**

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*chashioglu@gmail.com* və *derslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

## I BÖLMƏ


1. Bilik Günü ..... 6
2. Məktəb yolları ..... 8
3. Payızda ..... 10
4. Günayın çətiri ..... 16
5. Ana yurdum ..... 19
6. Müəllimə hörmət ..... 22
*Ümumiləşdirici tapşırıqlar ..... 25*


## II BÖLMƏ


7. Bir parça torpaq ..... 27
8. Çeçələ barmaq ..... 36
9. Yaxşılıq elə, minnət qoyma ..... 40
10. Təbiətin sehri ..... 43
11. Yaxşı yoldaşın təsiri ..... 46
12. Canlı saat ..... 50
13. Gün rejimi ..... 53
*Ümumiləşdirici tapşırıqlar ..... 56*

## III BÖLMƏ

14. Kompüter oyunu ..... 58
15. İlk qar ..... 68
16. Qış gəldi ..... 72
17. Qar altında həyat ..... 76
18. Meşə həkimi ..... 80
*Ümumiləşdirici tapşırıqlar ..... 84*

## IV BÖLMƏ

19. Yaxşılığa yaxşılıq ..... 86
20. İki alma ..... 89
21. Şəhidlər xiyabanı ..... 93
22. Üç oğlan ..... 97
*Ümumiləşdirici tapşırıqlar ..... 100*

## Piktoqramlar

Danışın

Yazın, köçürün

Göstərin

# BİLİK GÜNÜ

Elmə yiyələnmək həmişə şərəfli iş sayılıb. Bilikli adamlara hər yerdə hörmət edirlər. Öz biliyini başqalarına öyrədən müəllimlər isə daha böyük nüfuza malikdirlər. Qədimdə ən böyük hökmdarlar, sərkərdələr də müəllimin sözündən çıxmır, onun xahişini yerə salmırdılar.

Azərbaycanda hörmətli adamlara "müəllim" deyə müraciət edirlər. Deməli, xalqımız müəllim əməyinə yüksək qiymət verir.

Ölkəmizdə dərslərin başlandığı gün Bilik Günü kimi qeyd olunur.

**1** Hansı bənddəki sözlər mətndə işlənmişdir?

a) sərkərdə, bilik, əmək, xahiş
b) alma, armud, heyva, nar
c) at, inək, qoyun, keçi
d) maşın, gəmi, təyyarə, qatar

**2** Verilmiş şəkillərdən hansı mətnə uyğundur?



**3** Mətndə qırmızı hərflərlə verilmiş sözləri cümlədə işlədib yazın.

**4** Verilmiş izahlarla sözləri uyğunlaşdırın.

*Gülü qoymaq üçün müxtəlif formalı qab*

*Yeni məlumatlar almaq üçün istifadə olunan əşya*

*kitab*

*güldan*

**5** Verilmiş sözləri qruplaşdırın və yazın.

məktəb heyva kitab

dərzi alma

banan qələm bilik şaftalı

polis yanğınsöndürən bənna ərik

**6** Mətndəki ikinci və üçüncü cümləni köçürün. Ad bildirən sözlərin altından xətt çəkin.

**7** Uyğunluğu müəyyən edin və yazın.

Lalə

- kitab ..... .
- məktəbə ..... .
- alma ..... .
- gülləri ..... .

***gedir***
***oxuyur***
***yeyir***
***sulayır***

# MƏKTƏB YOLLARI

Yollar dünyada çoxdur,
Sayı-hesabı yoxdur:
Bostan yolu, bağ yolu,
Aran yolu, dağ yolu.

Bir yol var ki, dünyada
Onu getmirsən hədər.
Həmişə düşür yada,
Qoca olana qədər.

Bax, uşaqla doludur,
Bu yol məktəb yoludur.

*Xanımana Əlibəyli*

**1** Aşağıdakı fikir şeirdəki hansı misraları ifadə edir?

***Dünyada o qədər yol var ki, onları saymaqla bitməz.***

**2** *"Həmişə düşür yada"* ifadəsi ilə yaxınmənalı olan söz hansıdır?

a) unutmaq b) xatırlamaq c) ağlamaq

**3** *Yol, qoca, uşaq, məktəb, dünya* sözlərini cümlədə işlədin və yazın.

**Xatırlayaq**

Səslər iki yerə bölünür

saitlər samitlər

Saitlər tələffüz olunarkən hava axını ağız boşluğunda heç bir maneəyə rast gəlmir: *a*, *ı*, *o*, *u*, *e*, *ə*, *i*, *ö*, *ü*.

**4** Verilmiş sözləri köçürün. Həmin sözlərdəki saitləri tapıb tələffüz edin.

balıq dəniz qapı keçi

hörük diş gəmi taxta

çörək yemiş qoyun tələbə

**5** Şeiri köçürün. Şeirdəki sait səsləri ifadə edən hərflərin altından xətt çəkin.

Yollar dünyada çoxdur,
Sayı-hesabı yoxdur:
Bostan yolu, bağ yolu,
Aran yolu, dağ yolu.

**6** Hansı sözlərdə saitlər təkrarlanır? Həmin sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| sual | üzüm | ata | lələk | mişar |
| qazan | odun | ulduz | qardaş | tələ |
| lalə | çəmən | ətraf | ətir | nənə |

**7** Şeirin misralarında buraxılmış saitləri əlavə edərək köçürün.

B..x, ..şaqla d..ludur,
Bu y..l m..kt..b yol..dur.

**8** *"Məktəb yolları"* şeirinə aid olan şəkli göstərin və həmin şəkil haqqında danışın.

# PAYIZDA (I hissə)

Qızmar yay, avqustun yandırıcı günləri keçib getdi. Qızıl payız gəlir. Günlər get-gedə qısalır, gecələr uzanır. Havalar soyumağa başlayır. Göydə bulud topaları bir-birini qovur. Günlərlə göyün üzünü sıx bulud örtür. Tez-tez yağış yağır, güclü küləklər əsir. Ağacların yarpaqları rəngini dəyişir. Ağcaqayın, cökə ağaclarının yarpaqları limon kimi saralır. Ağcaqovağın yarpaqları isə köz kimi qızarır, elə bil od tutub yanır. Palıdın sıx və qalın yarpaqları misə bənzəyir. Hər ağacın öz rəngi var. Bəzisi gümüşü, açıq-sarı, bəzisi narıncı, bəzisi qırmızı, bəzisi açıq-qırmızı, bəzisi qonur... Ağacların gövdəsinə sarmaşan həmişəcavanın yarpaqları isə yaşıl atlas kimi parıldayır. İynəyarpaqlı şam və küknar da həmişə yamyaşıl olur. Meşə ala-bəzək görünür.

? Payızda havalar necə olur?
? Payızda meşənin görünüşü haqqında nə deyə bilərsiniz?
? Payızda otlar və çiçəklər necə olur?

**1** Payız fəslini xatırladan şəkilləri seçin və onlar haqqında danışın.

**2** Mətndə mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.

**3** Aşağıdakı fikirlərdən mətnə aid olanı seçin və yazın.

a) Yay tətilində biz gəzməyə getdik.
b) Yarpaqların rəngi sarı, qəhvəyi, narıncı rəngdə idi.
c) Müəllim dərsi izah edirdi.
d) Fuad futbolçudur.

**Bunları bilməliyik**

Saitlər qalın və incə olur.

**4** Tapmacanı köçürün, saitlərin altından xətt çəkin.

Tez-tez yağışlar yağır,
Dağı, dərəni isladır.
Bu fəsildə dərs başlayır,
Uşaqlar dərsə yollanır.
Bu fəsil necə adlanır?

**5** Sözləri müvafiq sütunlarda yerləşdirməklə cədvəli tamamlayın.

Yağış, soyuq, külək, payız, çətir, çəkmə, bulud, köçür, gecə.

| *a, ı, o, u* saitləri işlənən sözlər | *e, ə, i, ö, ü* saitləri işlənən sözlər |
|---|---|
| | |

**6** *"Payızda"* mətnindəki iki hecadan ibarət sözləri köçürün.

**7** Verilmiş saitlərlə başlayan sözlər deyin və cümlədə işlədin.

*e* *u* *ə* *i*
*a* *ü* *ö* *o*

**8** Hansı sözlərdə sait və samitlərin sayı bərabərdir? Həmin sözləri cümlədə işlədin.

| | | | | | |
|---|---|---|---|---|---|
| dəri | nərə | payız | baba | çətir | turac |
| nəvə | boya | pozan | alov | soyuq | altı |
| bulud | yuva | gödəkçə | təzə | tikan | sadə |

**9** "?" işarəsinin yerinə uyğun gələn söz hansıdır?

***? fəslində yarpaqlar saralıb tökülür.***

a) yay b) payız c) qış d) yaz

**10** Verilmiş tapmacada hansı sözlərdə saitlər təkrarlanır? Tapmacanın cavabı hansı şəkildədir?

***Nümunə:*** Ağaca

Ağaca çıxdım adamla,
Bir nəlbəki badamla.
Nə dili var, nə ağzı,
Hey danışır adamla.





**11** Saitlə başlayıb, saitlə bitən sözləri köçürün.

bibi hasar eynək ana

adam iri qənd ada iti

əsa səma alma divar ifadə

# PAYIZDA (II hissə)

Quşlar isti ölkələrə uçmağa hazırlaşır. Əvvəl qaranquş, bülbül, sarıköynək köçür. Onların ardınca sağsağanların, vəhşi ördəklərin, qazların səs-küylü dəstələri köçüb gedir. Durna qatarı dağların üstündən aşıb gözdən itir. Qarğa, qaratoyuq, sığırçın, dolaşa, çil kəklik, qırqovul, turac, ağacdələn, sərçə isə heç yerə köçmür.

Meşədə bəzən canavarın, çaqqalın ulaması, ayının nəriltisi eşidilir. Şələquyruq tülkü oğrun-oğrun kəndə gəlib, hinə girmək, toyuq-cücə aparmaq istəyir. Yazıq dovşan hürküb koldan kola atılır, düşmənlərdən canını zorla qurtarır. Payızın axırlarında havalar daha da soyuqlaşır, çən olur, qırov düşür. Dirrikdə, tarlada məhsul tamam yığılıb qurtarır, hər yerə səssizlik çökür. Tarlalarda ancaq yer şumlayan traktorların səsi eşidilir.

? Payızda hansı quşlar köçmür? Nə üçün?

? Payızın son ayı nə üçün “Qızıl payız” adlanır.

**1** Mətnin sonuncu cümləsi haqqında fikirlərinizi söyləyin.

**2** Şəkillərə diqqətlə baxın. Hansı şəkil mətnin sonluğuna uyğundur?



**3** Mətndə mavi rəngdə verilmiş sözü aşağıdakı hansı sözlə əvəz etmək olar?

çətinliklə  yataraq

baxaraq  gülərək  asan

**Bunları bilməliyik**

Qalın saitlər: *a*, *ı*, *o*, *u*.
İncə saitlər: *e*, *ə*, *i*, *ö*, *ü*.

**4** Yalnız incə saitlərdən ibarət olan cərgə hansıdır?

a) e, i, ö  b) ı, ü, o  c) ə, a, ı  d) ü, a, o

**5** Şeiri köçürün. Qalın saitlərin altından xətt çəkin.

Payız gəlincə quşlar,
Durnalar, qaranquşlar
İsti yerlər seçirlər,
Dəstə-dəstə köçürlər.

*M. Seyidzadə*

**6** Payız fəsli yay fəslindən nə ilə fərqlənir? Sualın cavabı hansı bənddə doğru verilib?

a) Payızda hava soyuq, yayda isə isti olur.
b) Yayda qar yağır, payızda isə hava isti olur.
c) Payızda çimərliklərdə insanlar istirahət edir.
d) Yayda yarpaqlar saralıb tökülür.

Doğru olan bəndi köçürün, incə saitlərin altından xətt çəkin.

**7** Mətndə verilmiş quş adlarını köçürün. İncə saitlərin altından xətt çəkin.

**8** Verilmiş sözləri müvafiq sütunlarda yerləşdirərək cədvəli tamamlayın.

adam, quzu, dəftər, alma, ələk, bitki, motor, sığırçın, lələk, tütün, bülbül, tumurcuq, kirpi, payız, külək, nənə, çətir.

| Qalın saitli sözlər | İncə saitli sözlər |
|---|---|
| | |

**9** Nöqtələrin yerinə uyğun olan hərfi artırıb yazın.




**10** Hansı fikir yanlışdır?

1. *a, ı, o, u* qalın saitdir.
2. Saitləri tələffüz edərkən hava axını ağız boşluğunda heç bir maneəyə rast gəlmir.
3. *e, ə, i, ö, ü* incə saitlərdir.
4. *a, ı, o* incə saitlərdir.

**11** Cümlələri tamamlayıb köçürün.

Payızda hava ..... olur.

Yarpaqlar saralıb ..... .

Quşlar ..... ölkələrə uçub gedir.

Payızda ..... yağır.

# GÜNAYIN ÇƏTİRİ

Günayın böyük çətiri var idi. Əsasən, yağışlı günlərdə istifadə edirdi. Çətiri ona üç il əvvəl babası almışdı. Onun çətiri müxtəlif rənglərdən ibarət idi: yaşıl, göy, qırmızı, sarı. Çətir böyük idi. Yağışlı havada dostları ilə birgə qoruna bilirdilər.

Bir gün Günay çətirini itirdi. Nə qədər axtardı, tapa bilmədi. Çox kədərləndi və ağladı.

Anası ona başa saldı ki, bəlkə, onun çətiri ehtiyacı olan birindədir. İndi onu yağışdan qoruyur. Bu sözlərdən sonra Günay bir daha çətiri üçün kədərlənmədi.

? Günay çətirdən nə zaman istifadə edirdi?
? Günay nə üçün kədərləndi?
? Çətir kimdə idi?

**1** Mətnə əsasən Günayın xarakterinə uyğun olmayan sözləri seçin.

a) mehriban, qayğıkeş
b) paxıl, laqeyd

**2** Günayın çətiri hansıdır?

**3** "?" işarəsinin yerinə uyğun gələn bənd hansıdır?

*Çətiri ona ? il əvvəl babası almışdı.*

a) beş b) on c) üç d) iki

**4** Mətnin əsas fikrini ifadə edən cümlələri müəyyən edib köçürün.

**5** Hansı sözdə qalın saitlərin sayı daha çoxdur?

| | | | | |
|---|---|---|---|---|
| çətir | stəkan | komandir | bağışlamaq | mükafat |
| rəngbərəng | Nəriman | düzbucaqlı | Günay | qızılgül |

**6** *"Çətir"* sözündə işlənmiş saitlərlə başlayan sözlər yazın.

**7** Verilmiş sözləri cədvələ uyğun yazın.

çiyələk, armud, Aygün, üzüm, araba, böyük, Nəriman, vaqon, Azərbaycan, sıyıq, sincab, medal, keçi, hədiyyə, doqquz.

| Yalnız qalın saitlər | Yalnız incə saitlər | Həm qalın, həm incə saitlər |
|---|---|---|
| | | |

**8** Sizin üçün dəyərli olan əşya haqqında danışın.

**9** Cümlələri tamamlayın.

Payızda hava soyuq ..... .

Ağacların yarpaqları saralıb ..... .

Köçəri quşlar uçub isti ölkələrə ..... .

Yağış yağanda çətirdən istifadə ..... .

**10** İnsan hisslərini ifadə edən sözləri seçib yazın.

qaçmaq yatmaq qorxmaq sevinmək yemək yumaq yuyunmaq hirslənmək kədərlənmək

**11** Şəkillərə əsasən uşaqların keçirdiyi hissləri müəyyən edin.

***kədər*** ***qəzəb*** ***sevinc***

**12** Mətni köçürün. Qalın saitlərin altından bir xətt, incə saitlərin altından iki xətt çəkin.

**Payızın sonu**

Payızın sonudur. Göyün üzünü qara buludlar almışdır. Hava çox soyuqdur. Tez-tez soyuq küləklər əsir. Narın yağış yağır. Yer tamam islanmışdır. Tarlalar boşalmışdır. Ağaclar yarpaqlarını tökmüş, çılpaq qalmışdır. Quşlar çoxdan uçub getmişdir. Qışın gəlişi hiss olunur.

**13** Tərkibindəki saitlərə görə sözlərdən biri fərqlidir.

a) saat b) maaş c) fəal d) camaat

# ANA YURDUM

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana vətən!

Bağdır, əkindir
Hər bir bucağın.
Qızıl təkindir
Sənin torpağın.

Qəlbim, canımsan,
Ey ana yurdum.
İsti qoynunda
Şən yuva qurdum!

*Abdulla Şaiq*

? Şeirin müəllifi kimdir?
? Şeir neçə bənddən ibarətdir?
? Şeirdə nədən söhbət gedir?

**1** *"Gözəl"* sözünə yaxınmənalı sözü tapın.



a) qəşəng b) isti c) soyuq d) kiçik

**2** Şeirin ikinci bəndini köçürün. Qalın saitlərin altından xətt çəkin.

**3** Hansı fikir doğru deyil?

a) Səslər iki yerə bölünür: saitlər və samitlər.
b) *a, ı, o, u, e, ə, i, ö, ü* – saitlərdir.
c) *b, c, ç, d, f, g, ğ,* və s. – samitlərdir.
d) *e, ə, i, ö, ü* – qalın saitlərdir.

**4** Verilmiş şəkillər haqqında məlumat verin.

**5** Verilmiş sözlərdə hər dəfə bir hərf dəyişməklə yeni söz yaradın və saitlərin altından xətt çəkin.

***Nümunə:*** Dağ-daş

quş-... bir-... top-...

diş-... baş-... tən-... tor-...

**6** Şeirin üçüncü bəndini köçürün. İncə saitlərin altından xətt çəkin.

**7** Cümlələri tamamlayın.

| | |
|---|---|
| *Azərbaycan bizim ... .* | *paytaxtıdır* |
| *Bakı Azərbaycanın ... .* | *Vətənimizdir* |
| *Azərbaycanın ... ordusu var.* | *güclü* |
| *Biz vətənimizi ... .* | *sevirik* |

**8** Uyğunluğu müəyyən edin.

a, ı, o, u e, ə, ı, ö, ü c, p, t, f, g, x, b, m

qalın saitlər samitlər incə saitlər

**9** Şeiri oxuyun. İncə saitlər işlənmiş sözləri seçib yazın.

Dinlə məni, gözəl vətən,
Bir söz gəlir ürəyimdən.
Vətənimin eşqilə sən
Güləcəksən hər bir zaman,
Azərbaycan, Azərbaycan!

*Səməd Vurğun*

**10** Samitlə başlayan, incə saitli sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| qələm | altı | kitab | üzüm | vətən |
| çətir | eynək | nənə | bibi | lalə |
| ətir | leylək | insan | Azərbaycan | çiçək |
| məktəb | karandaş | səma | təbiət | mənzərə |

**11** *"Vətənpərvər"* sözündə hansı hərflər var?
Həmin hərflərlə başlayan sözlər deyin.

**12** Böyük hərflə yazılmalı olan sözləri seçib yazın. Samitlərin altından xətt çəkin.

| | | | |
|---|---|---|---|
| çay | füzuli | ağdam | eldar |
| məskən | şuşa | məstan | üzük |
| dağ | dəniz | bayraq | çəmənlik |
| xəzər | quş | araz | istanbul |
| quba | toplan | əsgər | |

**Xatırlayaq**

İnsan, ölkə, şəhər, rayon adları
böyük hərflə yazılır.

# MÜƏLLİMƏ HÖRMƏT

Gözəl bir yaz səhəri idi. Türkiyənin padşahı Fateh Sultan Məhəmməd at belində, ordusu ilə İstanbula daxil olurdu. Sağında və solunda müəllimləri Ağşəmsəddin və Gürani var idi. Şəhərin əhalisi həyəcanla qəhrəman türk ordusunu qarşılayırdı.

Adamlar əllərindəki çiçək dəstələrini padşaha vermək istəyirdilər. Hamı ağ saqqallı, ağır duruşlu Ağşəmsəddini padşah bilib, çiçəkləri ona verməyə çalışırdı. Ağşəmsəddin atını bir qədər geriyə çəkir. Gözucu padşahı göstərərək "Sultan Məhəmməd odur. Çiçəkləri ona verin!" demək istəyirdi.

Bunu hiss edən padşah isə əllərində çiçək ona tərəf gələnlərə Ağşəmsəddini göstərib dedi:

– Çiçəkləri ona verin. Doğrudur, Sultan Məhəmməd mənəm, amma o mənim müəllimimdir.

**1** Verilmiş fikirlərdən biri mətnə aid deyil.

a) Müəllim bizi öyrədəndir.
b) Müəllim doğru yol göstərəndir.
c) Həkim xəstəni müalicə etdi.
d) Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. *(Heydər Əliyev)*

**2** Mətndə mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.

**3** Hansı şeir mətndəki əsas fikri ifadə edir?

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə
Sənin meyvələrin var.

*Bəxtiyar Vahabzadə*

Payızı çox sevirəm,
Havalar gözəl olur.
Qızıl rəngli yarpaqlar
Tökülür, xəzəl olur.

*Zeynal Cabbarzadə*

**4** Uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| həkim | aşpaz | müəllim | dərzi |
| tikir | müayinə edir | bişirir | öyrədir |

**5** Hansı bənddə sözlərin yazılışı doğru deyil?

a) sat, məllim b) təbiət, maaş c) səadət, ailə

**6** Ancaq saitlərdən ibarət olan sıranı tapın və həmin hərflərlə başlayan sözlər yazın.

a) t, m, a, s, z
b) a, ı, o, u, e, ə, i, ö, ü
c) a, ı, m, l, p, t, f
d) i, e, ə, j, y, h
e) t, d, z, p, f, ö

**7** Mətnin birinci abzasını köçürün. Qalın saitlərin altından xətt çəkin.

**8** Mətndən seçilmiş sözlərə diqqət yetirin.

çiçək əhali gözəl

müəllim doğrudur ordu İstanbul

Türkiyə padşah əllərində

Hansı sözlərdə ...

| yalnız incə saitlər işlənmişdir? | yalnız qalın saitlər işlənmişdir? | həm qalın, həm incə sait işlənmişdir? |
|---|---|---|
| | | |

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1** Mətn adlarını seçib yazın.

“Bilik Günü”

“Payızda”

“Günayın çətiri”

“Ana yurdum”

“Məktəb yolları”

“Müəllimə hörmət”

**2** Sözləri müəyyən edib köçürün.

Yollar ... çoxdur,
Sayı-hesabı ... :
Bostan yolu, bağ yolu,
... yolu, dağ yolu.

Bir yol var ki, dünyada
Onu ... hədər.
Həmişə düşür yada,
Qoca olana ... .

**3** Elə sözlər yazın ki, sait və samit sayı bərabər olsun.

***Nümunə:*** bibi, xala və s.

**4** *“Qarabağ”* sözündəki samitlərlə başlayan sözlər yazın. Həmin sözlərdə saitlərin altından xətt çəkin. Hansı samitlə başlayan söz yaza bilmədiniz?

**5** Mətndə saitlə başlayan sözləri seçib köçürün.

Payızın son günləri idi. Göyün üzünü qara buludlar almışdı. Bərk külək əsdi. Uşaqlar məktəbə toplaşdılar. Zəng çalındı. Uşaqlar sinfə daxil oldular. Güclü yağış yağmağa başladı. Uşaqlar payıza aid şəkil çəkdilər.

**Xatırlayaq**

Azərbaycan əlifbasındakı 32 hərfdən 9-u sait, 25-i isə samit səsi ifadə edir.

Saitlər: *a, ı, o, u, e, ə, i, ö, ü.*

Samitlər: *b, c, ç, d, f, g, ğ, x, h, j, k, q, l, m, n, p, r, s, ş, t, v, y, z.*

**6** Verilmiş atalar sözündə saitlərlə bağlı doğru fikir hansıdır?

***El gücü, sel gücü.***

a) Cümlədəki bütün saitlər qalındır.
b) Cümlədəki bütün saitlər incədir.
c) Cümlədə həm qalın, həm incə saitlər işlənib.

**7** Saitlərdən ibarət məntiqi ardıcıllığı tamamlayan söz hansıdır?

***Kükürd, bibi, üfüq, ... .***

a) alma b) gözəl c) igid d) sarı

**8** Nöqtələrin yerinə uyğun gələn sözləri yazıb, cümlələri köçürün. (*"Günayın çətiri"* mətnindən).

Günayın böyük ... var idi.

Əsasən ... günlərdə istifadə edirdi.

Çətiri ona ... almışdır.

Bir gün Günay çətirini ... .

**9** Buraxılmış hərflər haqqında verilmiş fikirlərdən hansı doğrudur?

a) Ç..tir – qalın samitdir.
b) Pay..z – incə saitdir.
c) Müəll..m – samitdir.
d) K..lək – saitdir.

# BİR PARÇA TORPAQ (I hissə)

Keçmiş zamanlarda gözəl təbiəti olan bir mahal vardı. Bu mahalda cəsur və zəhmətkeş insanlar yaşayırdılar. Mahalın müdrik bir başçısı vardı. Hamı ona Böyük ata deyirdi. Böyük ata çalışırdı ki, həmişə sülh, əmin-amanlıq olsun. O, igidlərinə deyərdi:

– Davanızı insanlarla yox, dağla, daşla edin, igidlərim. Baş yarmayın, qaya yarın, yol çəkin dağlara. Qan axıtmayın, tər axıdın, məhsul yetişdirin. Qoy vətənimiz çiçəklənsin.

Bir gün düşmən ordusu bu ellərə hücum etdi. Böyük ata qan düşməsin deyə düşmənin elçilərinə bir kisə qızıl verib yola saldı.

? Mahalın başçısına nə üçün Böyük ata deyirdilər?
? Böyük ata igidlərə həmişə nə deyirdi?
? Böyük ata elçilərə nə üçün qızıl verib yola saldı?

**1** Mətndə altından xətt çəkilmiş sözü aşağıdakı sözlərdən hansı ilə əvəz etmək olar?

a) qəhrəmanlarım b) şagirdlərim c) uşaqlarım

**2** Verilmiş fikrilərdən hansı mətnə aid deyil?

a) Vətənimiz daim yüksəklərdə olsun.
b) Biz vətənimizi sevirik.
c) Bağban ağacların dibini bellədi.

***Mahal*** – inzibati ərazi bölgüsü.

**Bunları bilməliyik**

Dodaqların vəziyyətindən asılı olaraq saitlər iki qrupa bölünür: *dodaqlanan* və *dodaqlanmayan*. o, u, ö, ü saitlərini tələffüz edərkən dodaqlar irəli uzanır. Ona görə bu saitlərə dodaqlanan saitlər deyilir.

**3** Dodaqlanan saitlərlə başlayan sözlər yazın. Həmin sözləri cümlədə işlədin.

**4** Tərkibində yalnız dodaqlanan saitlər olan sözləri müəyyən edin.

| | | | | |
|---|---|---|---|---|
| kömür | duman | dolu | ümid | xortum |
| oğlan | qulaq | hünər | hörük | örtük |
| odun | qatar | səma | ulduz | ütü |

**5** Atalar sözünü köçürün, dodaqlanan saitlərin altından xətt çəkin.

***Qürbət görməyən adam vətən qədri bilməz.***

**6** Hansı adlarda yalnız dodaqlanan saitlər işlənmişdir?

Könül  Lalə  Onur  Kamal

**7** Hansı sözlərdə iki dodaqlanan qalın sait var?
Həmin sözləri köçürün.

dolu  sarı  gilas
odun  pişik  ordu

**8** Şeiri köçürün. Dodaqlanan saitlərin altından xətt çəkin.

Gəzdim sənin çöllərini
Oba-oba, oymaq-oymaq.
Nə gözəlmiş qoynun sənin,
Ana torpaq, ana torpaq.

*X.R.Ulutürk*

**Unutmayın**

Azərbaycan Respublikasının bayrağı – Azərbaycan Respublikasının rəsmi simvollarından biridir.

Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olduğunu bildirir.

Qırmızı rəng – Müasirliyi ifadə edir.

Yaşıl rəng – İslam dininə mənsubluğu ifadə edir.

**9** Verilmiş sözlərdən istifadə edərək cümlə qurun və yazın.

1) vardı, başçısı, mahalın, bir, müdrik.

2) çiçəklənsin, vətənimiz, qoy.

3) yarmayın, yarın, baş, qaya.

**10** Köçürün. Dodaqlanan saitlərin altından xətt çəkin.

ördək üzüm odun

oraq üzük ulduz

**11** Tərkibində eyni qalın saitləri olan sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| qapı | quyu | qatar | qırmızı | Aytac |
| quzu | şamama | qayıq | qızıl | tamaşa |
| tumurcuq | qaşıq | araba | Aydın | quşçuluq |

**12** Tərkibində eyni saitlər olan beş söz yazın. Dodaqlanmayan saitlərin altından xətt çəkin.

# BİR PARÇA TORPAQ (II hissə)

Səhər tezdən elçilər yenidən gəldilər. Bu dəfə Böyük atanın döyüş atını tələb etdilər. İgidlər hiddətləndilər. Böyük ata onları sakitləşdirdi:

– Mənim döyüş atımı onlara verin, təki ölüm-itim olmasın.

Ertəsi gün elçilər yenə göründülər. Onlardan biri uca səslə dedi:

– Oğlunu aparmağa gəlmişik. O bizim orduda xidmət edəcək.

Elə bil atanın ürəyinə ox dəydi. O, qəm dəryasına batdı. Amma özünü ələ alıb dedi:

– Döyüşə qalxsaq, çoxlu igidlərimiz məhv ola bilər. Onlar mənim oğlumdan əskik deyillər.

? Böyük ata elçilərə nə verdi?
? Böyük ata nə üçün qəm dəryasına batdı?
? Ata özünü ələ alıb nə dedi?

**1** Verilmiş cümləni köçürün, dodaqlanan saitlərin altından xətt çəkin.

***Mənim döyüş atımı onlara verin, təki ölüm-itim olmasın.***

**2** Mətndə mavi rəngdə verilmiş sözü hansı sözlə əvəz etmək olar?

a) hirsləndilər b) güldülər c) sevindilər

**Bunları bilməliyik**

*a, ı, e, ə, i* – saitləri dodaqlanmayan saitlərdir.

**3** Dodaqlanmayan saitlərlə başlayan sözləri yazın. Hansı hərflə söz yaza bilmədiniz?

**4** Hansı fikir doğru deyil?

a) *a, ı, e, ə, i* dodaqlanmayan saitlərdir.
b) *e, ə, i, ö, ü* incə saitlərdir.
c) *o, u, ö, ü* dodaqlanan saitlərdir.
d) *o, u, a* incə saitərdir.

**5** Nöqtələrin yerinə uyğun gələn sözləri əlavə edib köçürün.

| | | |
|---|---|---|
| Kənan vətən haqqında şeir ... . | → | *söylədi, qaçdı* |
| Anam paltarları ... . | → | *ütülədi, yatdı* |
| Rafiq dayı ... yardı. | → | *çörəyi, odunu* |
| Fil ... ilə su içirdi. | → | *xortumu, qanadı* |

Əlavə etdiyiniz sözlərdə dodaqlanan saitlərin altından bir, dodaqlanmayan saitlərin altından iki xətt çəkin.

**6** Verilmiş sözləri cədvələ uyğun qruplaşdırıb yazın.

qələm, qoçaq, yaxşı, şagird, odun, uşaq, körpə, səhər, yaşıl, qırmızı, ulduz, alma, xortum, noxud, ağac, buğda, tələbə, qaşıq, enli, xətkeş, gözəl, böyük

| Dodaqlanan saitlər işlənən sözlər | Dodaqlanmayan saitlər işlənən sözlər | Həm dodaqlanan, həm dodaqlanmayan saitlər işlənən sözlər |
|---|---|---|
| | | |

**7** Oxuyun, saitlərin necə səslənməsinə diqqət yetirin. Hansı saitləri deyəndə səsiniz qalın çıxır? Bəs hansı saitləri deyəndə səsiniz incə çıxır?

Dünyada ölkələr var,
Bir-birindən qəşəng.
Doğma yurdum şən diyar,
Çəmənlərin rəngbərəng.

*Məmməd Rahim*

**8** Köçürün. Qalın saitlərin altından xətt çəkin.

göyərçin turac leylək qartal

qaranquş sığırçın qırqovul bülbül

**Xatırlayaq**

**Durğu işarələri**

Nöqtə (.) – hər hansı bir fikrin və ya məlumatın bitdiyini bildirir.
Vergül (,) – cümlədə ard-arda sadalanan sözlərin arasında qoyulur.
Sual (?) – sual bildirən cümlənin sonunda qoyulur.
Nida(!) – hiss, həyacan bildirən cümlənin sonunda qoyulur.

**9** Durğu işarələrindən istifadə edərək cümlələri köçürün.

***Sənin neçə yaşın var***
***Lalə qardaşına kitab qələm dəftər aldı***
***Yaşasın Azərbaycan***
***Fuad ağıllı oğlandır***

**10** Nöqtələrin yerinə hansı saitlər yazılmalıdır?

q..hrəman bayr..q k..tab

a) o, ö, ı b) ə, a, i c) u, ü, ı d) ə, ö, ı

**11** Verilmiş rənglərin hansının yazılışında sait və samitin yerini dəyişsək, yeni söz yaranar?

**12** Şeiri köçürün. Ən çox işlənən sait hansıdır?

İnanmırsan bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz,
Bax, beləyik biz.

*Abdulla Şaiq*

# BİR PARÇA TORPAQ (III hissə)

Elçilər Böyük atanın oğlunu apardılar. Hamı elə düşündü ki, daha düşmən əl çəkdi, sakitlik yarandı. Ancaq belə olmadı.

Səhər elçilər yenə Böyük atanın yanına gəldilər. Elin ağsaqqalı hirsini cilovlayıb soruşdu:

– Daha nə istəyirsiniz?

Elçilərdən biri dedi:

– Mahalınızdan bir parça torpaq istəyirik. Orada məskən salacağıq.

Hamının nəzəri Böyük ataya dikildi. Onun gözləri qəzəbdən alışıb-yandı. Ayağa qalxaraq qışqırdı:

– Haydı, igidlərim! Torpaq mənim yox, xalqındır. Düşmənə aman verməyin!

? Elçilər sonuncu dəfə Böyük atadan nə istədilər?
? Böyük ata nə üçün qəzəbləndi?
? Böyük atanın son sözü nə oldu?

**1** Mətnin sonuncu cümləsini öz sözlərinizlə ifadə edin.

**2** Hansı bəndi *"Orada məskən salacağıq"* cümləsi ilə əvəz etmək olar?

a) Orada yaşamayacağıq.
b) Həmin yerdə ağac əkəcəyik.
c) Orda yaşayacağıq.

**Unutmayın**

*Mətn nə haqdadır?* sualına cavab verərkən biz mətnin mövzusunu müəyyən edirik.

**3** Hansı bənd *"Bir parça torpaq"* mətninin mövzusuna uyğundur.

a) Vətən mövzusu b) ailə mövzusu c) təbiət mövzusu

**4** Cümlələri köçürün. Dodaqlanan saitlərin altından bir, dodaqlanmayan saitlərin altından iki xətt çəkin.

***Davanı insanlarla yox, dağla-daşla edin.***
***Mənim döyüş atımı onlara verin, təki ölüm-itim olmasın.***
***O bizim orduda xidmət edəcək.***
***Torpaq mənim yox, xalqındır.***

**Xatırlayaq**

Sözün asanlıqla bölünən hissəsinə heca deyilir.

**5** Üçhecalı sözləri seçib yazın. Elə saitin altından xətt çəkin ki, o həm incə, həm də dodaqlanan olsun.

| | | | | |
|---|---|---|---|---|
| yumurta | üstündə | kitabxana | atlı | portağal |
| hörümçək | dayı | düşməni | çiçək | kötük |
| üçrəngli | göyərçin | yol | noxud | səma |

**6** Hansı fikir doğru deyil?

1) Hecalar sait səsin hesabına yaranır.
2) Hər hecada yalnız bir sait səs olur.
3) Bəzən hecada heç samit səs olmur.
4) Sözdə neçə samit varsa, o qədər də heca var.

**7** Sözləri hecalara ayırıb köçürün.

| | | | |
|---|---|---|---|
| qara | qarğıdalı | taxıl | yəhər |
| günəş | kötük | kürək | tarla |
| məktəb | günəbaxan | dəftər | tozsoran |
| qarışqa | kitab | kələm | çiyələk |

**8** Hecaların axırına bir heca artırmaqla heyvan adları düzəldib yazın.

qo də cey ke tül pə pi qu

**9** Şeiri oxuyun və mənasını izah edin.

## Üçrəngli bayraq

Bu üç rəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göy qurşağıdır.
Üstündəki ay-ulduz
Gəlir mənim xoşuma.

Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.
Üçrəngli bayraq bizə
Təsəllidir, dayaqdır,
Yolumuzun üstündə
İşıq saçan mayakdır.

*Rafiq Yusifoğlu*

**10** Şeirin ikinci bəndini köçürün. Dodaqlanan saitlərin altından xətt çəkin.

**11** Misralardakı dodaqlanmayan saitlərlə başlayan sözləri tapıb cümlədə işlədib yazın.

Yolumuzun üstünə
İşıq saçan mayakdır.

**12** Azərbaycan bayrağındakı rənglərin mənaları haqqında məlumat verin.

**13** Yanaşı verilmiş iki şəkil adlarının birinci hecalarını ardıcıl birləşdirərək sözlər düzəldərək yazın.







# ÇEÇƏLƏ BARMAQ

Çeçələ barmaq Baş barmağı heç sevməzdi. Həmişə öz-özünə düşünürdü: “Hər işdə özünü qabağa verir. Qoymur ki, mən də qələm tutum, qaşığı saxlayım”.

Çeçələ barmağa par-par parıldayan bir üzük taxılmışdı. Bir gün bu üzük sürüşdü, az qaldı ki, barmaqdan çıxsın. Çeçələ barmaq Adsız, Orta və Şəhadət barmaqları köməyə çağırdı. Barmaqlar nə qədər çalışsalar da, üzüyü yerinə qaytara bilmədilər. Elə bu vaxt Baş barmaq özünü çatdırdı. Üzüyü tutub yerinə çəkdi. Sonra üzünü Çeçələ barmağa tutub dedi:

– Unutma ki, mən burdayam. Hər zaman mənə güvənə bilərsən.

Çeçələ barmaq o gündən sonra heç bir barmağa paxıllıq etmədi. Hamısı ilə dost oldu. Onlarla birgə xeyirxah işlər gördü.

? Çeçələ barmaq Baş barmağı nə üçün sevmirdi?

? Hansı gündən sonra barmaqlar birgə xeyirxah işlər gördü?

**Unutmayın**

Bir əlimizdə beş barmaq,
hər barmağımızın öz adı var.




**1** Mətndə altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?

a) atsın
b) düşsün
c) yesin
d) yazsın

**2** Uyğunluğu müəyyən edib yazın.

| | |
|---|---|
| baş, qol, ayaq, barmaqlar | meyvə |
| alma, armud, heyva, nar | heyvan |
| it, pələng, at, qoyun, meymun | nəqliyyat vasitələri |
| maşın, qatar, təyyarə, gəmi | bədən üzvləri |

**3** Şəkillər haqqında danışın.

**4** Sxemi çəkin, boş damalara uyğun gələn hərfləri yazın.

*Saitlər*

- *dodaqlanan*
  - *qalın* → ☐
  - *incə* → ☐
- *dodaqlanmayan*
  - *qalın* → ☐
  - *incə* → ☐

**5** Sözləri hecalara ayıraraq köçürün.

Hörümçək işini bitirdi. Tor hazır idi. Hörümçək gizlənib ovunu gözləməyə başladı. Görəsən, toruna nə düşəcək? Hörümçəyin toruna milçək düşdü.

**6** Şəkillərə baxıb, gördüklərinizi danışın. Hər şəklə aid bir-iki cümlə qurub yazın. Dodaqlanan saitlərin altından xətt çəkin.

**7** Yalnız dodaqlanmayan incə saitli on söz yazın.

**8** Buraxılmış hərfləri əlavə edib köçürün.

| | | | |
|---|---|---|---|
| a..tomobil | dəs..ə | ye..di | st..kan |
| ağa.. | dəf..ər | y..şik | sün..ül |
| aya..qabı | dir..ik | ..arandaş | təb..şir |
| a..bar | d..vlət | gö..ərçin | tap..aca |
| bos..an | düşm..n | la..pa | us..a |
| bulu.. | əs..ər | p..ncək | həf..ə |
| va..on | zə..bil | p..ncərə | şə..bə |
| va..zal | zən.. | sək..iz | ar..ud |

**9** Hansı sözü sətirdən sətrə keçirmək olmaz? Nə üçün?

a) işıq b) kələm c) siçan

**Xatırlayaq**

Yazıda söz sətrin sonuna yerləşməyəndə onun bir hissəsi yeni sətrə keçirilir. Bu zaman sözün əvvəlki hissəsinin sonunda defis (-) işarəsi qoyulur.

**10** Sözləri sətirdən sətrə keçirilmə qaydasına uyğun yazın.

acıqlı elədir oxuyacaqsan

oynamaq içəri afərin

**11** Mətndə hansı sözlər sətirdən sətrə düzgün keçirilməyib?

Azərbaycan dili mənim a-
na dilimdir. Biz bu dildə danı-
şırıq. Biz dilimizi yaxşı öy-
rənməliyik. Bu dil dünyanın ə-
n gözəl dillərindən biridir.

**Unutmayın**

Söz sətirdən sətrə heca bölgüsünə görə keçirilir.

**12** Qarşı-qarşıya yazılmış sözlər nəyə görə fərqlənir? Tərəflərin birini cümlədə işlədib yazın.

| | | | |
|---|---|---|---|
| nəzir | nazir | qədir | qadir |
| həyət | həyat | Kamal | Kamil |
| əhəng | ahəng | hakim | həkim |
| Atlaz | atlas | şəhid | şahid |

**13** Şəkillərdən istifadə edərək cümlə qurub yazın.

Yazdığınız cümlələrdə incə saitlərin altından xətt çəkin.

# YAXŞILIQ ELƏ, MİNNƏT QOYMA

Təsviri incəsənət dərsi idi. Uşaqlar alma şəkli çəkirdilər. Gülər çəkdiyi şəkli rəngləmək istəyəndə gördü ki, karandaşlarını evdə qoyub. O, Kamala dedi:

– Kamal, karandaşlarını ver, şəkli rəngləyim.

Kamal cəld cavab verdi:

– Axı özümə lazımdır.

Gülər dedi:

– Nə olar, növbə ilə rəngləyərik.

Kamal karandaşları verdi, amma mızıldandı:

– Bərk basma, sındırarsan! Çox rəngləmə!

Gülər cəld karandaşları ona qaytardı. Müəllim bayaqdan onlara fikir verirmiş. O, Gülərə yaxınlaşıb soruşdu:

– Nə üçün rəngləmirsən?

Gülər dedi:

– Karandaşlarım evdə qalıb.

– Bəs nə üçün Kamaldan almırsan?

Gülər dillənmədi. Müəllim Kamalın üzünə baxdı. Kamal qıpqırmızı qızarıb dedi:

– Mən verirəm, amma o istəmir.

Müəllim dedi:

– Bir şeyi elə vermək lazımdır ki, almaq istəsinlər.

? Gülər nə üçün karandaşları Kamala qaytardı?
? Kamal nə üçün minnət elədi?
? Gülərin yerində siz olsaydınız, nə edərdiniz?
? Bəs Kamalın yerində olsaydınız?

**1** Kamalın xarakterinə uyğun bəndi müəyyən edin.

a) xeyirxah b) xəsis c) sevimli d) gülərüz



**2** Mətnin hansı cümləsindən sonra demək olar ki, Kamal karandaşlarını vermək istəmir?

**3** Mətndə mavi rəngdə verilmiş sözlərdəki saitlərin növünü müəyyən edin.

**4** Nöqtələrin yerinə uyğun gələn saiti əlavə edib cümlələri köçürün.

***Təsviri inc..sənət dərsi idi.***

***K..mal cəld cavab verdi.***

***Nə olar, növb.. ilə rəngləyərik.***

***Çox rəngl..mə!***

***Mən verirəm, amma o ist..mir.***

**Bunları bilməliyik**

Səslənməsinə görə samitlər iki cür olur.
Kar samitlər: *p, ç, t, k, f, x, h, ş, s.*
Cingiltili samitlər: *b, c, d, g, v, ğ, j, z, m, n, l, r, y, q.*

**5** Kar samitlə başlayan sözləri seçib yazın.

fil palıd çəkic çörək şəhər
top bitki zəng taxıl fənər pələng
zavod hava balıq vaqon saz

**6** Cingiltili samitlə başlayan sözləri cümlədə işlədib yazın.

| | | | | |
|---|---|---|---|---|
| tüfəng | şələ | turac | əhəng | lalə |
| qanad | çəkic | jilet | dağ | qəfəs |
| savad | heyva | raket | qarpız | qıf |
| turp | çələng | yemiş | kitab | tilov |
| yağ | sənət | qutab | məktəb | heyva |

**7** Köçürün. Yalnız cingiltili samitlərin altından xətt çəkin.

Çiçəkli, ağaclı bağların öz zümzüməsi olur. Budur, səhər yeli çiçəklərin ətrini ətrafa yayır. Çiçəklərdən səslər gəlir. Bu arıların vızıltısıdır.

**8** Hansı şəklin adı cingiltili samitlə başlayıb, cingiltili samitlə bitir. Həmin sözləri yazın.



**9** Hecalarının sayı eyni olan sözləri yazın.



*bir hecalı* *iki hecalı*

# TƏBİƏTİN SEHRİ

Portağal narıncıdır,
Yaşıl bibər acıdır.
Ağacda al almalar
Meyvələrin tacıdır.

Qarpız yaman tumludur,
Şaftalı çox suludur.
Alça, armud, çiyələk
Yay boyunca doludur.

Badımcan bənövşəyi,
Soğanın ağ örpəyi.
Hər fəsildə görərsən
Meşədə göbələyi.

*Aysel Ağayeva*

**1** Şeirin mövzusu nədir?

a) meyvələrin faydası
b) meyvə və tərəvəzlərin xüsusiyyəti
c) təbiətdən alınan qidalar
d) meyvələrin ziyanı

**2** Meyvə və tərəvəzlərin şeirdə verilmiş xüsusiyyətlərini yazın.

portağal | yaşıl bibər | alma | qarpız | şaftalı | badımcan

**3** Şeirin ikinci bəndini köçürün. Cingiltili samitlərin altından xətt çəkin.

**4** Söz sırasını tamamlayın. Verilmiş şəkillərin adlarını uyğun gələn sətrin qarşısında yazın.

*Armud, heyva, nar, şaftalı, ərik, ...*



*Nərgiz, bənövşə, zanbaq, qızılgül, ...*

*Keçi, inək, at, dəvə, ...*



*Düyü, arpa, mərci, noxud, ...*

*Cırcırama, milçək, arı, ...*

*Palıd, söyüd, çinar, ...*



**5** Ardıcıllığı elə davam etdirib yazın ki, birinin son samiti digərinin başlanğıc hərfi olsun.

a) bıçaq-qaşıq-qoyun-...
b) corab-banan-nar-...
c) yarpaq-qalxan-nağıl-...
d) mismar-rəsm-məmləkət-...

Sözlərin hansı növ samitlərlə başladığına diqqət yetirin.

**6** Köçürün. Cingiltili samitlərin altından xətt çəkin.

Məktəbimizdə yeni kitabxana istifadəyə verildi. Bu bizi çox sevindirir. Kitabxanada dərs hazırlamağı çox xoşlayırıq. Kitabların az olması bizə çətinlik yaradırdı. Buna görə də müəllimlərimiz və valideynlərimiz kitabxanaya yeni kitablar hədiyyə etdilər. Bizim sevincimiz ikiqat artdı.

**7** Verilmiş şəkil adlarının hansının son hərfini "ş" samiti ilə əvəz etsək, yeni söz yaranmaz. Həmin sözü cümlədə işlədib yazın.



**8** Köçürün. Qarşı-qarşıya yazılmış sözlərin mənalarına görə dəyişməsinin səbəbini izah edin.

| | | | |
|---|---|---|---|
| zal | sal | sənəd | Sənət |
| kələm | qələm | cala | Çala |
| səfər | zəfər | yağdı | yaxdı |
| tələ | dələ | mala | qala |

**9** Kar samitlərlə başlayan sözlər yazın.

# YAXŞI YOLDAŞIN TƏSİRİ

Böyük fars şairi Şeyx Sədi yaxşı yoldaşın insana təsirini göstərmək üçün demişdir:

– Bir gün bağda gəzərkən ayağımın altında yarıqurumuş bir yarpaq gördüm. Onu əlimə aldım, çox gözəl və xoş qoxusundan nəşələndim. Soruşdum:

– Sən gülmüsən, ənbərmisən, bu qədər xoş qoxuyursan?

Yarpaq cavab verdi:

– Xeyr, mən gül deyiləm, amma bir müddət gül yarpağı ilə yoldaşlıq etmişəm.

? Şeyx Sədi harada gəzirdi?
? O, bağda nə gördü?
? Nə üçün qurumuş yarpaq Sədinin xoşuna gəldi?
? Yarpaq Sədiyə nə dedi?

**1** Atalar sözlərindən hansı mətnin məzmununa uyğundur?

a) Yalançının evi yandı, heç kəs inanmadı.
b) Yoxsula hörmət edən hörmət sahibi olar.
c) Yoldaşını göstər, deyim sən kimsən.

**2** Mətnin sonuncu cümləsini köçürün. Cingiltili samitlərin altından xətt çəkin.

**3** Mətnə aid olmayan sözləri seçib cümlədə işlədib yazın.

dost kəpənək at
gül tac günəş yarpaq

**4** Mətndəki əsas fikri ifadə edən cümləni müəyyən edin. Həmin cümlədəki kar samitləri seçib yazın.

**5** Hərfləri qruplaşdırıb yazın.

n ğ h m d g z ç

*kar samitlər*

*cingiltili samitlər*

x b t r q y p c j

**Bunları bilməliyik**

Qarşılığı olan cingiltili və kar samitlər:

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kar samitlər: | *p* | *ç* | *t* | *k* | *f* | *x* | *ş* | *s* | *x'* | *k'* |
| | ↕ | ↕ | ↕ | ↕ | ↕ | ↕ | ↕ | ↕ | ↕ | ↕ |
| Cingiltili samitlər: | *b* | *c* | *d* | *g* | *v* | *ğ* | *j* | *z* | *y* | *q* |

**Unutmayın**

| *cingiltili* | | *kar* |
|---|---|---|
| baş | ← b – p → | pas |
| zal | ← z – s → | sal |
| val | ← v – f → | fal |
| dələ | ← d – t → | tələ |
| yağın | ← ğ – x → | yaxın |
| cala | ← c – ç → | çala |
| gəl | ← g – k → | kəl |

**6** Kar samitləri seçib yazın.

p ü ç f s o g ş a e ə ğ t k l v u



**7** Sözləri köçürün. Samit dəyişikliyinə diqqət yetirin.

| | | |
|---|---|---|
| kəl – gəl | dər – tər | boz – poz |
| gül – kül | tuş – duş | fal – val |
| kir – gil | dik – tik | zaman – saman |
| göz – köz | dar – tar | pas – bas |

**8** Hansı sözün hər hansı bir samitini kar qarşılığı ilə əvəz etsək, yeni söz yaranmaz?

a) qəlb b) mətn c) sənəd d) zal

**9** Şəkillər haqqında fikir söyləyin.



**10** Sözləri cədvələ uyğun qruplaşdırın.

yaz, sevinc, adam, göy, eynək, şadlıq, dost, gül, bahar, göl, ailə, ilan, papaq, xiyar, kələm, üzüm, öyüd, ata, təyyarə, qulluq, duman, müharibə, öz, xalq.

| Qalın saitlə başlayan sözlər | İncə saitlə başlayan sözlər | Kar samitlə başlayan sözlər | Cingiltilli samitlə başlayan sözlər |
|---|---|---|---|
| | | | |

**11** Şəkil adlarının əvvəlinə bir samit artırmaqla yeni söz düzəldib cümlədə işlədib yazın.



**12** Buraxılmış hərfləri əlavə etməklə köçürün.

| | | |
|---|---|---|
| dur..a | xu..ma | na..ara |
| çəmən..ik | ma..al | yə..ər |
| toyu.. | sə..əni | zü..afə |
| badı..can | ve..rə | ja..et |
| gö..əl | Ce..hun | du..na |

**13** Oxuyun. Mətndən yadda qalanı yazın.

Bərk soyuqlar düşmüşdü. Samirin iti xəstələndi. Samir itini çox sevirdi. O, it damına quru ot döşədi. İtə isti süd verdi. Bir neçə gündən sonra it sağaldı. Samir çox sevindi. O, iti ilə həyətdə oynadı.

# CANLI SAAT

Orxan səhərlər yuxudan oyana bilmirdi. Ona görə də dərsə tez-tez gecikirdi.

Bir gün qar yağmışdı. Orxan şirin yuxudan sərçələrin civiltisinə oyandı. Gözünü açan kimi saata baxdı. Saat yeddi idi. Orxan vaxtında yuxudan oyandığına çox sevindi.

O qalxıb paltarını geyindi. Tez sərçələrə dən səpdi. Sərçələr dəni dimdikləyib yedilər.

Orxan dedi:

– Sabah gəlin, yenə dən verəcəm.

Həmin gündən Orxan bir də dərsə gecikmədi. Hər səhər sərçələr onun pəncərəsinə yığılıb civilti ilə şüşəni döyəcləyir, yem gözləyirlər. Orxan yuxudan ayılıb onları yemləyirdi.

*Əli Səmədli*

? Orxan nə üçün dərsə gecikirdi?
? Orxanı vaxtında yuxudan oyadan nə oldu?
? O, sərçələri görüb nə etdi?
? Orxan sərçələrə nə dedi?

**1** Mətndə hadisələrin baş verdiyi zaman hansı bənddə qeyd olunub?

a) payız – axşam
b) qış – səhər
c) yay – gecə
d) yaz – günorta

**2** Mətnin sonuncu abzasını köçürün. Kar samitlərin altından xətt çəkin.

**3** Hər bir sütunda verilmiş sözlərin ümumi mənasını müəyyənləşdirib boş xanaya uyğun gələn sözü seçin.

bağça, qış, sərçə, arpa, Aysel

| | | | | |
|---|---|---|---|---|
| yay | qaranquş | dən | məktəb | |
| | göyərçin | | | Orxan |
| payız | | buğda | universitet | Ramil |

**4** Yalnız cingiltili samitlədən ibarət bəndi göstərin.

a) p, ç, t
b) d, k, f
c) x, ş, s
d) d, g, v

**5** Verilmiş samitlərin arasına saitlər əlavə edərək müxtəlif sözlər düzəldin. Sözləri qalın və incə saitlərin işlənməsinə görə qruplaşdırıb yazın.

| | | |
|---|---|---|
| t | | r |

| | | |
|---|---|---|
| q | | z |

| | | |
|---|---|---|
| d | | ş |

**Bunları bilməliyik**

*L, m, n, r* – cingiltili samitlərinin kar qarşılığı yoxdur.
Belə samitlər sonor samitlər adlanır.
*H* – kar samitinin isə cingiltili qarşılığı yoxdur.

**6** Doğru olmayan variant hansıdır?

a) a, ı, o, u – qalın saitlərdir
b) l, m, n, r – cingiltili samitlər, kar qarşılığı yoxdur
c) p, ç, t, k, f – cingiltili samitlərdir
d) e, ə, i, ö, ü – incə samitlərdir

**7** *"Qarabağ Azərbaycandır"* cümləsindəki samitlərin növünü müəyyən edin.

**8** Mətnin mövzusuna uyğun olan şeiri müəyyən edin və köçürün. Samitlərin altından xətt çəkin.

Qulağını yalandan
Yaxşı-yaxşı bururam.
Məktəb vaxtı çatanda,
Hey çağırır dururam.

*İlham Baxışoğlu*

Xəstəlik bilmir Əkrəm,
Sağlamdır onun canı.
Çünki yadından çıxmır,
Onun səhər idmanı.

*Hacıxan Abdullayev*

**Unutmayın**

Sözlərin sonunda bir çox cingiltili samitlər kar samit kimi səslənir.

b – [p] – kitab – [kitap]
g – [k] – tüfəng – [tüfək]
q – [k] – şəfəq – [şəfək]
d – [t] – qanad – [qanat]
c – [ç] – ağac – [ağaç]
q – [x] – ocaq – [ocax]

**9** Hansı variantda səhv yazılan söz var?

a) ağac, manat
b) qonax, kitap
c) otaq, şəfəq
d) bulud, qayıq

**10** Şəkil adlarının deyilişi ilə yazılışı arasındakı fərqi izah edin.

**11** Nöqtələrin yerinə uyğun olan sözü əlavə edib köçürün.

***Orxan, sərçələrə, şüşələrini***

İndi ..... yuxudan tezdən oyanır, idman eləyir, əlüzünü yuyur, ..... dən verib məktəbə yollanır. Daha onun balaca dostları pəncərənin ..... dimdikləmir, hay – küy salıb ..... çağırmırlar.

Əksinə, sərçələr hər dəfə cingiltili səslə sanki ona deyirlər:

– Sağ ol!

# GÜN REJİMİ



Müəllim bizə esse yazmağı tapşırdı. O gün dərsimizin adı "Sağlam yaşamaq" idi. Anamın ən sevdiyi mövzu idi. Çünki o bizə sağlam yaşamaq, qidalanmaq haqqında həmişə danışır.

Hər gün yuxudan tez oyanıb əl və üzümüzü yuyuruq. Dişlərimizi fırçalayırıq. Mütləq idman hərəkətləri edirik. Sonra səhər yeməyi yeyirik. Anam səhər yeməyinin çox vacib olduğunu söyləyir. Biz hər gün səhər yumurta, bal, yağ, kəsmik və pendir yeyirik. Anam bu qidaların faydaları haqqında danışır.

Günün ikinci yarısı dərsdə oluruq. Bunun üçün anam çantamıza meyvə, qoz, fındıq, badam qoyur, tənəffüslərdə yeməyimizi tapşırır. Dərsdən sonra evə gəlib yeməyimizi yeyirik.

Sağlamlıq üçün təmiz hava da vacibdir. Bir az dincəlib parka gedirik. Sonra dərslərimizi öyrənib gec olmadan yatırıq.

? Müəllimin sinfə tapşırığı nə idi?
? Həmin gün dərsin mövzusu nə idi?
? Ana uşaqlara ən çox nədən danışırdı?

**1** Nöqtələrin yerinə uyğun gələn sözləri əlavə edib cümlələri köçürün.

*1) Sağlamlıq üçün təmiz ..... lazımdır.*
*2) Dərsdən evə gəlib ..... yeyirik.*
*3) Dərslərimizi öyrənib ..... yatırıq.*

**2** Sözləri qruplaşdırıb yazın.

yumurta alma bal ərik pomidor

yağ gavalı kartof kəsmik kələm pendir

gilas süd badımcan şaftalı sarımsaq

**3** Hansı şeir mətnin məzmununa uyğundur?

Səhər durunca,
Əlimdə fırça,
Sildim dişimi,
Bildim işimi.

*A.Şaiq*

Yurdumdur Azərbaycan,
Qoluyam, qanadıyam.
O mənim doğma anam,
Mən onun övladıyam.

*H.Ziya*

**Unutmayın**

Sözlərin deyilişi və yazılışı

| *Yazılış* | *Deyiliş* |
|---|---|
| dörd | [dört] |
| polad | [polat] |
| armud | [armut] |
| qanad | [qanat] |
| öyüd | [öyüt] |

**4** Hər bir sözün sonuna samit əlavə edib yazın.

| | |
|---|---|
| ayı | orta |
| dara | mələ |
| qoru | bələ |
| sarı | ələ |
| qala | cala |

**5** Siz də gün rejiminiz haqqında danışın.

**6** Sözlərdə buraxılmış samitləri əlavə edərək yazın. Sözlərin tələffüzünə diqqət yetirin.

uşa..

buda..

nəhən..

pola..

kən..

qona..

palı..

**7** Şəkillərdəki gün rejimi haqqında məlumat verin.



**8** Verilmiş hecaların sonuna nümunədəki kimi hecalar artıraraq yeni sözlər düzəldin və köçürün.

***Nümunə:*** kö – tük

| | | | |
|---|---|---|---|
| pi - ..... | və - ..... | kir - ..... | ar - ..... |
| ki - ..... | pər - ..... | pen - ..... | pə - ..... |
| qə - ..... | qar - ..... | fın - ..... | da - ..... |
| miş - ..... | ba - ..... | qo - ..... | ki - ..... |
| na - ..... | dov - ..... | mək - ..... | boş - ..... |

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1** Verilmiş cümlələr hansı mətindəndir?

- *Qan axıtmayın, tər axıdın, məhsul yetişdirin.*
- *Barmaqlar nə qədər çalışsalar da, üzüyü yerinə qaytara bilmədilər.*
- *Bərk basma, sındırarsan! Çox rəngləmə!*
- *Qarpız yaman tumludur.*
  *Şaftalı çox suludur.*
- *Xeyr, mən gül deyiləm, amma bir müddət gül yarpağı ilə yoldaşlıq etmişəm.*
- *Həmin gündən Orxan bir də dərsə gecikmədi.*
- *Sağlamlıq üçün təmiz hava da vacibdir.*

**2** Sözün içindəki sözləri tapıb yazın.

***Nümunə:*** qatar – qat, at, ata, tar.

canavar televizor istifadə çarpayı gilənar

**3** Köçürün. Dodaqlanan samitlərin altından xətt çəkin.

Axşam tutdu hər yeri
Qalın duman, ay aman.
Səhər oyanıb gördüm,
Dumandan yoxdur nişan.

**4** Tərkibində yalnız dodaqlanmayan saitlər olan sözləri köçürün.

| | | | |
|---|---|---|---|
| kömür | bina | küçə | pendir |
| çəmən | duman | meyvə | balıq |
| üzüm | ilan | heyva | nənə |
| qarğıdalı | paxlava | qayçı | yol |

**5** Fikirlərdən hansı doğru deyil?

a) *a, ı, o, u, e, ə, i, ö, ü* – saitlərdir.
b) *a, ə, i, ü* – qalın saitlərdir.
c) *p, f, h, ş, s* – kar saitlərdir.
d) *g, v, j, z, m* – cingiltili samitlərdir.

**6** Oxuyun. Balıqlar necə nəfəs alır? Fikrinizi öz sözlərinizlə ifadə edin.

**Balıqlar niyə suda yaşayır?**

Başqa heyvanlar kimi balıqların da nəfəs alması üçün oksigen lazımdır. Ancaq onlar oksigeni quruda yaşayan heyvanlar kimi havadan yox, sudan alırlar. Balığın başında xüsusi nəfəs üzvü – qəlsəmələr yerləşir. Su ağızdan qəlsəmələrə daxil olur və oksigen sudan qana keçir. Bundan sonra su qəlsəmənin deşiklərindən bayıra çıxır.

**7** Mətnin birinci cümləsini köçürün. Samitlərin altından xətt çəkin.

**8** Şəkillərdən istifadə edərək şeiri oxuyun.

narıncıdır,
acıdır
Ağacda
Meyvələrin tacıdır.

**9** Köçürün, sözlərin mənasının necə dəyişdiyini izah edin.

| | | | |
|---|---|---|---|
| od – ot | ac – aç | qara – qaya | qab – qap |
| ad – at | sac – saç | para – paya | val – fal |
| yad – yat | sarıq – sayıq | az – as | |

**10** Sözləri hecalara ayırmaqla mətni oxuyun.

Payızda hava soyuq olur. Çoxlu yağış yağır. Quşlar yem tapa bilmir. Uşaqlar ağacdan quş dənliyi asdılar. Nazilə evdən çörək gətirdi. Quş dənliyinə çörək qırıntıları tökdülər. Quşlar dənlədi.

# KOMPÜTER OYUNU (I hissə)

Toğrul məktəbdən gələn kimi çantasını bir tərəfə atıb kompüteri yandırdı. Həvəslə oyun oynamağa başladı. Saatlar keçdi, Toğrul isə kompüterdən əl çəkmirdi. O, hərdən əllərini bir-birinə vurub bərkdən gülür, hərdən qışqırırdı.

Birdən Toğrul acıqlı bir səs eşitdi: “Bəsdir daha! Bu qədər oynamaq olar?! Mən artıq yorulmuşam!” Toğrul qorxdu.

? Toğrul hardan gəlirdi?
? Toğrul harada oyun oynayırdı?
? Onu nə qorxutdu?

**1** Şəkil adlarını cümlədə işlədib yazın.

Şəkildə gördüyünüz əşyalar haqqında məlumat verin.

**2** İnformasiya ala biləcəyimiz əşyalar olan bəndi tapın.

a) daraq, qayçı, ütü

b) televizor, kompüter, radio

c) alma, alça, əncir

d) divan, rəf, stul

**Unutmayın**

***İnformasiya*** – insanlar, canlılar, cansızlar, faktlar, hadisələr, proseslər və s. haqqında olan məlumat və biliklərdir.

**Unutmayın**

Sözlərdə bəzi saitlərin yazılışı və deyilişi. ə, yoxsa e ?

| | | |
|---|---|---|
| əkiz | ertə | enli |
| pencək | pendir | gətir |

**3** Buraxılmış hərfləri əlavə edib yazın.

m..şq g..niş m..tbəx

p..ncərə s..kkiz k..tmən

***Kətmən*** – kənd təsərrüfatı alətidir.

**4** *"Kompüter oyunu"* mətninin birinci cümləsini köçürün. Samitlərin altından xətt çəkin.

**5** Hansı sözdə saitlərin sayı çoxdur?

a) qanad
b) nişan
c) şəhid
d) ailə

**6** Cümlələri tamamlayıb köçürün.

- ***Çantasını bir tərəfə atıb kompüteri ..... .***
- ***Həvəslə ..... oynamağa başladı.***
- ***O, hərdən gülür, hərdən ..... .***

**7** Nöqtələrin yerinə uyğun gələn hərfləri əlavə edib sözləri köçürün.

uşa..

şaf..alı

həy..can

qəhr..man

həf..ə

nəq..rət

**8** Səhv yazılmış sözləri düzəltməklə cümlələri köçürün.

***1) Dosd dar gündə tanınar.***
***2) Bosdanda bol məhsul yetişdi.***
***3) Toğrul cantasını atdı.***
***4) Uşaxlar xeyli balıxqulağı topladılar.***
***5) müəllim şagirdləri gəzməyə apardı.***
***6) Sentyabırın on beşi biliy günüdür.***

# KOMPÜTER OYUNU (II hissə)



– Kimdir o?! – Toğrul həyəcanlı səslə dilləndi.

– Tanımadın? Mənəm, sənin kompüterin!

Toğrulun gözləri böyüdü. Doğrudan da, kompüter əllərini belinə qoyub hirsli-hirsli ona baxırdı....

Toğrul qorxa-qorxa soruşdu:

– Bu necə olur? Axı kompüter danışa bilmir.

– Bəli, elədir. Amma mən daha dözə bilmədim! Nə qədər oynamaq olar? Bəs sən dərslərini nə vaxt oxuyacaqsan?

? Toğrulun kompüteri ona nə dedi?

? Kompüter nə üçün hirsləndi?

**1** Mətndə mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.

**2** Mətnin sonuncu abzasını köçürün, qalın saitlərin altından xətt çəkin.

**3** Verilmiş sözləri cədvəlin tələbinə görə nümunədəki kimi yazın.

kitab, dəftər, xətkeş, kənd, qənd, dost, yurd, qolbaq, qaşıq, balıq, ağac, pələng, asta, taxta, tüstü, isti, təbiət, dairə, aid.

| Yazılış | Deyiliş |
|---|---|
| kitab | [kitap] |
| | |
| | |

**4** Tapmacanın cavabı hansı şəkildədir?

Yağış yağanda
Çimər yuyunar.
Yazda geyinər,
Qışda soyunar.

**Unutmayın**

***u yoxsa ü ?***

| | |
|---|---|
| nümunə | guşə |
| şüa | musiqi |
| sübut | muzey |
| mübarək | muncuq |

**5** Buraxılmış hərfləri əlavə edib cümlədə işlədərək yazın.

| | |
|---|---|
| q..drət | z..rafə |
| g..mrah | n..mayəndə |
| g..nah | m..siqi |
| g..rultu | m..dafiə |
| s..rsat | m..haribə |
| r..tubət | m..kafat |

**6** Şəkillərin adını yazın. Sonra həmin adları nümunədəki kimi cədvəldə yazın.



| *Şəklin adı* | *Hecaya ayrılışı* | *Sait* | *Samit* |
|---|---|---|---|
| maşın | ma - şın | a, ı | m, n |

**7** Aşağıdakı informasiya vasitələri ilə məlumat alarkən hansı duyğu orqanlarımızdan istifadə edirik?



**8** Cümləni tamamlayın və yazın.

***Kompüter arxasında çox əyləşmək olmaz, çünki ...***

a) ... gözlərə ziyandır.
b) ... saçlara ziyandır.
c) ... qulağa ziyandır.

**Xatırlayaq**

Duyğu orqanları:
dil, göz, qulaq, dəri, burun.

**9** Hansı sözləri hecaya ayırmaq olmaz?

ayı ilbiz tank Zeyd plov
cəng arı aş əlli
ağac diş daş ləng güllü

**10** Tapmacanın cavabı hansı bənddə verilib?

İki kürküm var,
On qardaşa çatar.
Bunu kim tapar?

a)
b)
c)
d)

# KOMPÜTER OYUNU (III hissə)

Qapı açıldı. Toğrulunn anası içəri girdi. Ona boşqabda meyvə gətirmişdi. Toğrul anasının yanına qaçıb kompüteri göstərdi, kəkələyə-kəkələyə dedi:

– Bax, ana, kompüterə bax!

Amma anası təəccüblü heç nə görmədi. Kompüter səssizcə öz yerində durmuşdu, ekranı da sönmüşdü.

– Afərin, oğlum! Kompüteri söndürmüsən ki, dərslərini oxuyasan. Bax həmişə belə ol!

Toğrul ayaqlarını sürüyə-sürüyə dərslərini oxumağa getdi.

*Reyhan Yusifqızı*

? Toğrul nə üçün kəkələməyə başladı?
? Anası Toğrula nə dedi?
? Toğrul haqqında fikirlərinizi söyləyin.

**1** Cümlələri tamamlayıb yazın.

***1. Toğrul dərs oxumaq istəmirdi, çünki ..... .***
***2. Toğrul qaçaraq anasına yaxınlaşdı, çünki ..... .***
***3. Toğrulun anası ona: "Afərin", – dedi, çünki ..... .***

**2** Mətnin sonuncu cümləsini öz sözlərinizlə ifadə edin.

**3** Mətndən üç ikihecalı və beş üçhecalı söz seçib yazın.

**4** Şəkil adlarının ilk hərfləri ilə hansı söz yaranır?




**Unutmayın**

***ö yoxsa o ?***

| | |
|---|---|
| qönçə | dovğa |
| nöqsan | dolma |
| tövbə | dovşan |
| nöqtə | qoşa |

**5** Birinci hecanın yerinə hansı bənddəki sözü yazmaq olmaz?

***..... – daş***

a) yol
b) sirr
c) yer

**6** *Tövlə, xörək, dovğa, qönçə* sözlərini cümlədə işlədib yazın.

**7** Yalnız qalın və yalnız incə saitləri olan beş söz yazın.

***Nümunə:*** araba, üzümçü.

**8** Ardıcıllığı müəyyən edib cümlələri köçürün.

***1. dərslərini, istəmirdi, oxumaq, Toğrul.***
***2. girdi, Toğrulun, içəri, anası.***
***3. gətirmişdi, boşqabda, meyvə, ana.***
***4. ol, bax, belə, həmişə.***

**9** Sözləri hecalara düzgün ayıraraq yazın.

| | | | |
|---|---|---|---|
| n-ər-di-van | qa-ran-l-ıq | a-rmud | soğ-n |
| k-o-mpü-ter | p-omi-dor | şə-kər-b-ura | kita-b |

**10** Hansı hərflərlə söz başlamır?

a) l, m b) ı, ğ c) ö, a d) r, t

**11** Şəkil adlarını cümlədə işlədib yazın.

**12** Hansı bənddəki sözlər mətnə aiddir? Həmin sözləri cümlədə işlədərək yazın.

a) neftçi, buruqlar, Xəzər, dəniz
b) xalça, palaz, xalı, kilim
c) dərs, kompüter, oxumaq, oyun
d) qatar, təyyarə, maşın, gəmi

**13** Uyğunluğu müəyyən edin.

| | | | | |
|---|---|---|---|---|
| a | ı | o | u | |
| u | ö | o | ü | |
| b | c | ç | d | |
| e | ə | i | ı | a |
| e | ə | i | ö | ü |

| |
|---|
| incə saitlər |
| dodaqlanan saitlər |
| dodaqlanmayan saitlər |
| samitlər |
| qalın samitlər |

**14** Hər bir sözün qarşısına bir samit əlavə edib yazın.

***Nümunə:*** öyüd – söyüd

əmi | aşıq | ayaq | ayıq

ələk | etdi | əzir

**15** Ardıcıllığı davam etdirib yazın. Həmin sözlər haqqında məlumat verin.



*corab* | *qatar*

*nar* | *telefon*

*bayraq* | *raker*

***Kilim*** – yun və ya pambıqdan toxunan zolaqlı palaz növü.

# İLK QAR

Kənddə qışdır. Axşam düşür. İri qar dənələri yavaş-yavaş aşağı enir. Damların, ağacların üstünə, yerə qonur. Hər yer yumşaq, ağ paltar geyinir. Hələ qurumamış otlar qarın altında qalır.

Səhər tezdən durub, kəndin kənarına çıxırsan. Hər tərəfdə sakitlikdir. Hava necə də təmizdir. Sinə dolusu nəfəs alırsan. Bu vaxt qarın üstü bir qədər bərk olur. Havada hərdənbir qar dənələri fırlanırdı. Belə sakit günlərdə meşə necə də gözəl görünür. Dar cığırların üstünə ağacların ağır budaqları sallanır. Azca toxunan kimi qar topaları adamın üstünə, yerə tökülür. Qarı tökülmüş budaq isə yellənir, xırda qar zərrələri havada gümüş tozu kimi parıldayır.

Ağaclardan ara-sıra qaratoyuqlar uçuşur, sakitliyi pozurlar. Harada isə yaxında səs eşidirsən. Bu ağacdələnin tappıltısıdır. Yazıq dovşan azca xışıltı eşidən kimi qaçıb gizlənir.

Bir azdan yenə sakitlik çökür. Başının üstündə üfüqlər azacıq işıqlı və boz görünür. Elə bil göy yerə yaxınlaşıb.

*Abbas Səhhət*

? Qış fəsli haqqında nə deyə bilərsiniz?
? Kənddə qış fəslini necə təsvir edərsiniz?

**1** Mətndə adı çəkilən quşları cümlədə işlədib yazın.

**2** Qış fəslinin ayları olan bəndi göstərin.

a) iyun, iyul, avqust
b) sentyabr, oktyabr, noyabr
c) dekabr, yanvar, fevral
d) mart, aprel, may

**3** Mətndə mavi rəngdə verilmiş cümləni hansı bəndlə əvəz eləmək olar.

a) dərindən nəfəs almaq
b) nəfəs almamaq
c) əlini ağzına tutaraq nəfəs almaq

**Unutmayın**

***ö yoxsa e ?***

Zövq, Sevda, dövlət, dövran, mövzu.

**4** Verilmiş sözləri cümlədə işlədib yazın.

xoşbəxt dövlət soyuq

dovşan şaxta qar

**5** Cümlələri oxuyun. Cavabları yazın.

***1. Qış fəslində hava necə olur?***
***2. Qış fəslinin ayları hansılardır?***
***3. Qışda uşaqların ən sevdiyi oyun?***
***4. Qar necə olur?***
***5. Buz ilə qarın fərqi nədir?***

**6** Şəkilləri adlandırın. Hansı heyvan qış yuxusuna gedir?



Heyvan adlarını cümlədə işlədib yazın.

**7** *"qı"* hecasına verilmiş hərfləri artıraraq sözlər düzəldib yazın. Həmin sözlərdə samitlərin altından xətt çəkin.

*r* *f* *z* *ş* *t*

**8** Ən çox hecası olan sözü tapıb cümlədə işlədib yazın.

qış boranlı şaxta qartopaları şaxtababa

**9** Şeiri köçürün. Qalın saitlərin altından xətt çəkin.

Budur yenə qış necə ki var, gəlir,
Şaxta gəlir, soyuq gəlir, qar gəlir.
Səpir qarı ağaclara kollara,
Dərələrə, təpələrə, yollara.

*Abbas Səhhət*

**Xatırlayaq**

Səsləri deyirik və eşidirik, hərfləri yazırıq və görürük.

***Yelkən*** – gəmini, qayığı hərəkətə gətirmək üçün dirəyə bağlanan qalın parça.

**10** Verilmiş şəkil adlarında neçə səs və neçə hərf olduğunu müəyyən edin.




**11** Nöqtələrin yerinə hansı sait yazılsa, söz alınar? Həmin sözləri köçürün.

x..l

m..l

b..l

n..l

q..l

h..l

y..l

**12** Səkkiz hərfdən və üç hecadan ibarət sözləri seçin, cümlədə işlədərək yazın.

| | | |
|---|---|---|
| qatar | qərənfil | soyuq |
| qar | üzümlük | xasiyyət |
| əkiz | çəkil | qırqovul |

**13** Şəkillər haqqında məlumat verin.

# QIŞ GƏLDİ

Qonaq gəlir elə qış,
Soyumuşdur havalar.
Ağ geyinmiş hər tərəf,
Dayanmadan yağır qar.

Şüşələr buz bağlamış,
Şaxtanın gücünə bax!
Külək sovurur qarı
Divarlara çırparaq.

Heç qorxmurlar soyuqdan,
Geyinib isti paltar.
Qartopu oynayırlar,
Çöldə qoçaq uşaqlar.

Taxıl, meyvə bol olar,
Qar çox yağsa nə qədər.
Qışı da bahar kimi
Xoşlayır bizim ellər.

*Tofiq Mütəllibov*

? Şeir neçə bənddən ibarətdir?
? Şeirin müəllifi kimdir?
? Şair şeirdə qışın hansı əlamətlərini təsvir edib?

**1** Şeirin üçüncü bəndi haqqında öz fikirlərinizi söyləyin.

**2** Şeirin birinci bəndində birhecalı sözləri tapın və cümlədə işlədib yazın.

**3** Şəkil adlarındakı ilk hərflərdən hansı sözlər düzəlir?

**4** Samitlə başlayan sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| qonaq | soyuq | el | hava | ağ |
| divar | albalı | ördək | çovğun | əlcək |
| papaq | karandaş | arı | günəş | yağış |

**Bunları bilməliyik**

**Dialoq**

İki və daha çox obraz arasındakı söhbətə dialoq deyilir. Yazıda hər bir obrazın nitqi yeni sətirdən başlayır və qarşısındakı tire ( – ) işarəsi qoyulur, *məsələn*:

*Müəllimlə şagirdin dialoqu.*
*Müəllim şagirddən soruşur:*
*– Qışda nə üçün çaylar buz bağlayır?*
*Şagird cavab verir:*
*– Bizim sürüşməyimiz üçün.*

**5** Sinif yoldaşınızla dialoq tərtib edib yazın.

**6** Cümlələri tamamlayıb köçürün.

***Qış fəslində qar ..... .***

***Soyuqdan qorunmaq üçün insanlar qalın ..... .***

***Ayı qışda ..... yuxusuna gedir.***

***Hər tərəf ağ ..... geyinir.***

***Obraz*** – surət, personaj.

**7** Verilmiş sözlərdən istifadə edərək dialoqu tamamlayıb oxuyun.

***– Salam ..... .***

***– Salam, ..... .***

***– Kim deyər, indi hansı ..... ?***

***– İndi ..... fəslidir.***

***– Qışda hava ..... olur?***

***– Qışda hava ..... olur.***

***qış***

***fəsildir***

***uşaqlar***

***necə***

***soyuq***

***müəllim***

**8** Verilmiş şəkillərə uyğun dialoq qurub danışın.

**9** Hansı sözlərdə əvvəldə işlənə bilməyən hərf var?

a) kələm, qartal, limon
b) paxlava, heyva, nar
c) qış, qarğıdalı, balıq
d) yaz, soyuq, şaxta

**10** Hecaya bölünməyən sözləri seçin yazın.

| | | | |
|---|---|---|---|
| baba | top | lalə | qaz |
| hava | soyuq | qış | yaz |
| şamdan | kağız | maşın | su |
| çovğun | biz | kartof | soğan |
| nərdivan | kənd | sait | qənd |
| isti | dost | naxış | turp |

**11** Verilmiş sözlərin qarşısından ümumi adını yazın.

qış, yaz, yay, payız — _____

naringi, armud, kivi, ananas — _____

it, qoyun, at, donuz — _____

tort, şəkərbura, paxlava — _____

**12** Şeirin ikinci bəndində tərkibində dodaqlanan sait olan sözləri yazın.

# QAR ALTINDA HƏYAT

Qışda tarlaya gedin və qarı eşib, əkinə baxın. Görəcəksiniz ki, qarın altı yamyaşıldır. Taxıl qarın altında yatmışdır. Göyərmiş cavan yarpaqlar boynubükük durmuş, soyuq onu tələf etməmişdir.

Nə üçün bunların həyatı qorunmuşdur? Çünki qar istiliyi pis keçirir, buna görə də yer qarın altında öz hərarətini saxlayır. Qışda taxıl qar örtüyünün altında yatır. Elə ki yaz gəlir, hərarət artır, qar əriyir, taxıl da boy atıb böyüyür.

? Əkin qarın altında necə yaşıl qalır?
? "Qar altında həyat" ifadəsini necə başa düşürsünüz?

**1** Mətnin birinci abzasını köçürün, incə saitlərin altından xətt çəkin.

**2** Hansı fikir doğru deyil?

a) Dekabr qış ayıdır.
b) Avqust payız ayıdır.
c) Qışdan sonra yaz gəlir.
d) Qış fəslində gecə uzanır, gündüz qısalır.

**3** Qarşı-qarşıya verilmiş saitlərdən hansı qalın, hansı incədir? Verilmiş saitlərlə başlayan beş söz yazın.

a – ə | ö – o | u – ü | i – ı

**4** Tərkibində eyni incə saitləri olan sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| qələm | cökə | yeşik | əncir | üzüm |
| kəpənək | düşmən | ördək | birinci | Sərvər |
| meşə | iyirmi | dəmir | qəzet | kirpi |
| günəş | vərəq | məktəb | nömrə | |

**Bunları bilməliyik**

Eynicinsli qoşasamitli sözlərin deyilişi və yazılışı

| *Yazılış* | *Deyiliş* |
|---|---|
| doqquz | [dok'quz] |
| saqqal | [sak'qal] |
| çaqqal | [çak'qal] |
| səkkiz | [səkgiz] |
| mütəkkə | [mütəkqə] |

**5** Buraxılmış hərfləri əlavə edib köçürün.

| | | |
|---|---|---|
| dir..ik | am..a | toq..a |
| yed..i | Sət..ar | çaq..al |
| sək..iz | ayaq..abı | a..dım |
| doq..uz | diq..ət | mütək..ə |
| qü..vətli | ə..vəl | saq..al |
| bə..na | | mürək..əb |

**6** Hər bir sətrin qarşısında uyğun gələn qoşasamitli sözü yazın.

Həftənin günlərinin sayı ..... .

Tərəvəzin əkildiyi yer ..... .

Tülküyə bənzəyən heyvan ..... .

Yeddidən sonra gələn rəqəm ..... .

**7** Hansı şəklin adında eynicinsli samit işlənib? Həmin sözləri cümlədə işlədib yazın.

**8** Cədvələ uyğun olaraq sözləri qruplaşdırın.

kərpic, rəssam, stul, siçan, toqqa, kollec, zebra, nəqliyyat, məntiq.

| Eynicinsli qoşasamitli sözlər | Müxtəlifcinsli qoşasamitli sözlər |
|---|---|
| | |

**9** Ulu öndər Heydər Əliyevin bu kəlamında neçə heca var?

***"Təhsil millətin gələcəyidir".***

**10** Şəkildə gördüklərinizi haqqında danışın.

**11** Verilmiş cümlədə neçə dördhecalı söz var? Həmin sözləri cümlədə işlədib yazın.

***Çalışqan insanları sevməliyik,***
***amma, ən əsası, özümüz çalışqan olmalıyıq.***

**12** Hansı uşaq adı hecaya yanlış ayrılıb?

Təy-yar

Zül-fiy-yə

M-əh-ə-mm-əd

Ru-hiy-yə

**13** Nümunəyə uyğun olaraq sözlərə şəkilçi artırın.

***Nümunə:*** gül – güllü

ev – .....
uşaq – .....
his – .....

dil – .....
kol – .....
tel – .....

# MEŞƏ HƏKİMİ

Qış idi. Böyük qardaşımla meşəyə getmişdik. Ağacların altında o qədər qar vardı ki, addım atmaq olmurdu.

Qarın az olduğu yerlərdə tülkü, dovşan, dələ, qarğa ayaqlarının izləri görünürdü.

Günəşin zəif şüaları meşəni güclə işıqlandırırdı. Hər tərəfdə sakitlik idi. Birdən bütün meşə cingiltili səslə doldu: “Trıp!.. Trıp!..” Yenə də hər yeri sakitlik bürüdü. Bir azdan sonra yenidən səs eşidildi: “tuk-tuk.....-tuk”. Mən qardaşımdan soruşdum:

– Bu nə səsdir?

O dedi:

– Quşdur, ağacın gövdəsini dimdikləyir.

– Bu hansı quşdur?

– Bu, meşə həkimi ağacdələndir.

– Axı yayda meşədə heç belə səs eşitməmişəm.

– Yayda quşlar səs-səsə verib oxuyurlar. Ona görə də bu səs quşların nəğmələri içərisində itib-batır. Sakit şaxtalı qış günündə isə ağacdələnin səsi hər tərəfə yayılır.

Qardaşımdan öyrəndim ki, ağacdələnin ağ kəkili sinəsi, möhkəm dimdiyi və qarnı var. O, səhərdən axşama qədər ağacların gövdəsini dimdikləyir. Qabığın altında, gövdədə gizlənmiş qurdları tapıb yeyir. Beləliklə, o, ağacları “müalicə” edir, çürüməkdən, xəstəlikdən qoruyur.

? Ağacdələnin görünüşü necədir?

? O, qidanı necə əldə edir?

? Nə üçün ağacdələni meşə həkimi adlandırırlar?

**1** Mətnin dialoq hissəsini köçürün. İkihecalı sözlərin altından xətt çəkin.



**2** Ağacdələnə aid olan rənglər hansıdır?

a) göy, qırmızı, yaşıl
b) ağ, qara, qırmızı
c) sarı, qara, yaşıl

**3** *"Ağacdələn"* sözündə işlənmiş hərflərlə başlayan sözlər yazın. Hansı hərflə söz yaza bilmədiniz?

**4** Məntiqi ardıcıllığı tapın.

| | |
|---|---|
| ağacdələn + ağac | 6 |
| çanta + tısbağa | 5 |
| qələm + …… | 4 |

a) armud b) nar c) tar d) albalı

**5** Quşların adlarını söyləyin.

**Unutmayın**

| *Yazılış* | *Deyiliş* |
|---|---|
| qanad | [qanat] |
| kənd | [kənt] |
| dörd | [dört] |
| bulud | [bulut] |
| söyüd | [söyüt] |

**6** Buraxılmış hərfləri əlavə etməklə köçürün.

| | | | |
|---|---|---|---|
| dəs..ə | kən..li | boş..ab | həf..ə |
| dəf..ər | is..i | palı.. | Bəs..i |
| tax..a | şax..a | us..a | küf..ə |
| Məs..an | pola.. | ..ükan | kar..on |

**7** Hansı uşağın söylədiyi sözün ilk samitini kar qarşılığı ilə əvəz etsək, yeni söz yaranmaz?

a) dələ

b) kənd

c) dar

d) zəhər

**8** Sözdə hecanı tapmaq üçün nəyi saymaq lazımdır?

a) saiti b) samiti c) kar samiti d) hərfləri

**9** Düzgün yazılan sözləri cümlədə işlədib yazın.

sat, toqa, səkiz

palıd, qanad, doqquz

sir, kənt, qanat

ulduz, gilaz, bosdan

**10** Verilmiş sözləri düzgün və səhv yazılışına görə qruplaşdırıb yazın.

*kənd* *sentyabr* *dəftər* *məllim* *eyvan*

*qənd* *doşan* *ağac* *kitap* *məktəb* *doqquz*

*isti* *pişik* *səkgiz* *qaşıx* *palıt*

**11** Cədvəli nümunədəki kimi doldurun.

| *"n" hərfi əvvəldə* | *"n" hərfi ortada* | *"n" hərfi sonda* | *"ə" hərfi əvvəldə* | *"ə" hərfi ortada* | *"ə" hərfi sonda* |
|---|---|---|---|---|---|
| nar | ana | qan | | | |
| | | | | | |
| | | | | | |

**12** Şəkillər haqqında danışın.

**13** Verilmiş sözlər içərisində həm sağa, həm də sola oxunduqda mənası olan sözləri seçib köçürün.

| | | | | |
|---|---|---|---|---|
| lal | əl | yaş | diş | |
| bal | ləl | şam | qar | iti |
| qaş | boş | yod | dolu | tir |
| daş | tut | dil | kələm | kəpək |

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1** Verilmiş şəkillər hansı mövzulara aiddir?



**2** Şeirin ardını siz söyləyin.

Qonaq gəlir elə qış,
Soyumuşdur havalar.
Ağ geyinmiş hər tərəf,
Dayanmadan yağır qar.

**3** Cümlələri tamamlayıb köçürün.

***1) Dekabr, yanvar, fevral qış fəslinin ..... .***
***2) Qışda hamı qalın ..... .***
***3) Yanvar ayının biri yeni ilin ..... .***
***4) Uşaqlar həyətdə xizəklə ..... .***

**4** Sözlərdə işarələnmiş hərfi dəyişərək yeni sözlər düzəldib yazın.

***Nümunə:*** nənə – nəvə

| | | | |
|---|---|---|---|
| ata – ..... | ət – ..... | bar – ..... | toyuq – ..... |
| bir – ..... | qar – ..... | baş – ..... | məktəb – ..... |

**5** Sözlərə müvafiq gələn hərfləri əlavə edin.

a) kita.., tə..aşır, tən..əl
b) q..ş, təyya..ə, qana..
c) kələ.., mək..əb, gül..an

**6** Rənglərin adını yazın. Hansı rəng qarın rəngidir.
Həmin sözü cümlədə işlədib yazın.



**7** Sözləri cədvələ uyğun qruplaşdırıb yazın.

dəftər, isdi, tüsdü, dörd, süd, söyüd, dəsdə, taxta, kəndli, doqquz, çakqal, səkkiz, komanda, kombayın, pamidor.

| Yazılış | Deyiliş |
|---|---|
| | |

**8** Sözlər sətirdən sətrə necə keçirilir?

a) samitlərin köməyi ilə
b) hecanın köməyi ilə
c) yalnız incə saitlərlə
d) kar samitlərin köməyi ilə

**9** Nöqtələrin yerinə uyğun gələn hərfləri əlavə edib köçürün.
Beş sözü cümlədə işlədin.

| | | | | |
|---|---|---|---|---|
| nö..tə | kən.. | dəf..ər | ik.. | tül..ü |
| uşa.. | qən.. | al..ı | sək..iz | cü..ə |
| balı.. | kita.. | yed..i | saq..al | la..ə |
| qaşı.. | is..i | əl..i | pələn.. | |

**10** Verilmiş şəkil adlarını məna qrupuna görə uyğun gələn sıranın qarşısından yazın.

- ***nəlbəki, qaşıq, stəkan, .....***
- ***alma, armud, heyva, nar, .....***
- ***şəkərbura, badambura, qoğal, .....***
- ***qoz, badam, püstə, .....***



# YAXŞILIĞA YAXŞILIQ

Bir dəfə Əhmədlə Səməd meşədən keçəndə bir ayı balasına rast gəldilər. Ayı qurumuş ağacın üstündə oturub zarıyırdı. Əhməd dedi:

– Görəsən, o niyə zarıyır?

Səməd dedi:

– Nə işinə qalıb? Gəl qaçaq. Bizi görən kimi üstümüzə cumacaq.

– Dayan görüm, burada nəsə bir sirr var, – deyə Əhməd ehtiyatla ayıya yaxınlaşdı.

Yaxına gələndə gözlərinə inanmadı. Ayı balasının qabaq pəncəsi ağacın yarıq yerinə girmişdi. Yazıq heyvan nə qədər əlləşirdisə, pəncəsini çıxara bilmirdi.

Əhməd ətrafı axtarıb yekə bir ağac tapdı. Onu ağacın yarığına salıb əyməyə çalışdı. Amma gücü çatmadı. Səmədi köməyə çağırdı. Səməd isə barmağını dodaqlarına aparıb “sus” işarəsi verdi, yəni “mən burada yoxam”.

Əhməd var gücünü toplayıb ağacı bir də qanırdı. Nəhayət, ayı balasının pəncəsi ağacın yarığından çıxdı. O, axsaya-axsaya meşənin içinə doğru getdi. Hərdən dönüb Əhmədə tərəf baxır, sanki ondan arxasınca gəlməyi xahiş edirdi. Əhməd ayı balasının hərəkətinə təəccüblənsə də, onun dalınca getdi.

Onlar meşənin sıx yerinə gəldilər. Ayı balası bir ağacın yanında dayandı. Əhməd gördü ki, ağacın koğuşu ağzına kimi balla doludur. Sən demə, ayı öz xilaskarını bala qonaq etmək istəyirmiş.

*Zahid Xəlil*

? Ayı nə üçün zarıyırdı?
? Əhməd ayıya necə kömək etdi?
? Səmədin yerində siz olsaydınız, Əhmədə kömək edərdiniz?
? Ayı öz xilaskarına necə təşəkkür etdi?

**1** Mətnin sonuncu abzasını köçürün. Qalın saitlərin altından xətt çəkin.

**2** Səmədin "Nə işinə qalıb? Gəl qaçaq. Bizi görən kimi üstümüzə cumacaq" cümləsinə münasibət bildirin.

**3** Sözləri cümlədə işlədib yazın.

***ayı*** ***bal*** ***meşə*** ***pəncə*** ***ağac*** ***xilaskar*** ***qonaq***

***Qanırmaq*** – əymək.

***Koğuş*** – böyük ağacların gövdəsinin içindəki boşluq.

**Xatırlayaq**

**Söz və onun mənası**

Sözlər

- ad bildirən
- əlamət bildirən
- hərəkət bildirən

Ətrafımızda olan bütün canlı və cansız varlıqların adı var.
*Məsələn: heyva, oğlan (Musa), it.*
Ad bildirən sözlər insana aid olduqda *kim?* sualına cavab verir.
*Məsələn: Gülnar (kim?) meyvə yedi.*
Digər canlı və cansız varlıqların adını bildirən sözlər *nə?* sualına cavab verir.

**4** *"Kim?"* sualına cavab verən sözləri köçürün.

| | | | | | |
|---|---|---|---|---|---|
| Lalə | tufan | qələm | Səməd | Şuşa | odun |
| qapı | bal | Əhməd | göy | Aynur | Nuranə |
| xurma | ay | dovşan | Tahir | Elxan | |

**5** Altından xətt çəkilmiş sözlərin qarşısında sualını yazaraq cümlələri köçürün.

***Nümunə:*** Əhməd *(kim?)* ayını xilas etdi.

***1. Əhməd yekə bir ağac tapdı.***

***2. Səməd ayı balasına kömək etmədi.***

***3. Ayı öz xilaskarını bala qonaq etmək istəyirmiş.***

**6** Bu mətnə uyğun hansı atalar sözünü seçmək olar?

a) Yaxşılıq yerdə qalmaz.
b) Yalançının evi yandı, heç kim inanmadı.
c) İşləməyən dişləməz.

**7** Hansı şəkil adları hecaya bölünməz?

**8** Sözləri cümlədə elə işlədib yazın ki, həm *kim?*, həm də *nə?* sualına cavab versin.

Lalə günəş səma

yasəmən ulduz nərgiz

**9** Hansı bənddəki sözlər *kim?* sualına cavab verir?

a) müəllim, Anar, Lalə
b) tufan, yağış, kitab
c) Lalə, armud, gəmi

# İKİ ALMA

Tofiq riyaziyyat dəftərini anasına göstərib soruşdu:

– Anacan, gör məsələni düz həll eləmişəm?

Ana onun dəftərinə baxıb dedi:

– Yox, oğlum, səhvdir, iki alma çatmır. Yaxşı fikirləş, yoxsa pis qiymət alarsan.

Səhər ana Tofiqi məktəbə, Sevdanı bağçaya yola salanda hərəsinə bir qırmızı alma verdi.

Axşam dərsdən qayıdanda Tofiq anasına dedi:

– Anacan, səhər sən mənə bir alma vermişdin. Ancaq məktəbdə çantanı açanda gördüm ki, orada iki alma var. Bu necə ola bilər?

Birdən Sevda dilləndi:

– O biri almanı çantaya mən qoymuşdum.

Ana təəccüblə soruşdu:

– Niyə, qızım sən ki almanı çox xoşlayırsan?

– Xoşlayıram. Amma almanı verməsəydim, Tofiq pis qiymət alardı axı!

Ana ilə Tofiq bir-birinin üzünə baxıb gülüşdülər. Sonra ana Sevdanı qucağına alıb öpdü və dedi:

– Ay mənim mehriban, qayğıkeş qızım!

*İsa Hümmətov*

? Anası Tofiqə neçə alma verdi?
? Tofiqin çantasına ikinci almanı kim qoydu?
? Sevda nə üçün almanı qardaşının çantasına qoydu?

**1** Mətn və şəkil arasındakı uyğunsuzluğu müəyyən edin. Şəkildə kim təsvir edilməmişdir?

**2** Mətnə uyğun olaraq şəkillərin ardıcıllığını müəyyən edin.

**3** Mətnin sonuncu cümləsini köçürün. Saitlərin altından bir, samitlərin altından iki xətt çəkin.

**4** Mətndə *kim?* sualına cavab verən sözləri tapın və yazın.

**5** Cədvələ uyğun sözləri qruplaşdırıb yazın.

alma, Tofiq, banan, telefon, ana, bacı, üzüm, televizor, quş, bal, lalə, ayı, Lalə, külək, yaşəmən, dağ, Yaşəmən.

| *kim?* sualına cavab verən | *nə?* sualına cavab verən |
|---|---|
| | |
| | |
| | |

**Xatırlayaq**

Yer adı bildirən sözlər ***hara?*** sualına cavab verir.
*Məsələn: Azərbaycan* ***(hara?)*** *mənim vətənimdir.*

**6** Cümlələri tamamlayıb köçürün.
Altından xətt çəkilmiş sözlərə sual verin.

- ***Atam Ağdama ..... .***
- ***Səlim mağazadan dəftər, qələm ..... .***
- ***Nərgiz səliqəli ..... .***
- ***Əsgərlər Şuşanı işğaldan azad ..... .***

**7** *Hara?* sualına cavab verən sözləri cümlədə işlədib yazın.

| | | | | | |
|---|---|---|---|---|---|
| alma | kitab | Tural | Füzuli | Laçın | soğan |
| avtobus | Quba | ütü | Leyla | Türkiyə | təkər |

**8** Hansı sözlər hecaya düzgün ayrılmayıb?

k – ələm | kü – çə | Xaçm – az

hə – kim | qat – ar | mü – əl – lim | a – yı

**9** Hansı şəkil adları *nə?* sualına cavab veri?





**10** Sözləri qruplaşdırıb yazın.

ata, araba, ana, ayı, kitab, kədər, oba, arı, azuqə, daraq, ada, sənəd.

| Üç hərfli, iki hecalı | Beş hərfli, iki hecalı |
|---|---|
| | |
| | |
| | |

**11** Nöqtələrin yerinə hərf əlavə edib sözləri köçürün.

qa..tal
nər..iz
Şu..a
da..ı
sü..bül
pen..ir
sa..t

Naxç..van
günə..axan
xoş..əxt
dəf..ər
qaz..n
sə..a
bağ..an

**12** Suallara uyğun sözlər əlavə edərək cümlələri köçürün.

1. *Kim? nə?* aldı.
2. *Nə?* şirin idi.
3. Mağazadan *nə?* aldım.
4. *Nə? kimə?* kimə tərəf hürdü.



# ŞƏHİDLƏR XİYABANI

Sinə gəlib dünyanın
Payızına, qışına,
Həmişə qərq olubdur
Gül – çiçək yağışına
Şəhidlər xiyabanı.

Məzarlar doğma, yaxın,
Məzarlar yan-yanadır.
Övladlarına ağı
Deyən müdrik anadır
Şəhidlər xiyabanı.



Məmməd Əmin amalı,
Əhməd Cavad şeiridir.
Vətəni sevənlərin
Əbədi and yeridir
Şəhidlər xiyabanı.

Yurduma göz tikənə
Etirazımdır mənim,
Heç zaman pozulmayan
Alın yazımdır mənim
Şəhidlər xiyabanı.

*Əbülfəz Naxçıvanlı*

? Şeirin müəllifi kimdir?
? Şeir neçə bənddən ibarətdir?
? Şeirin məzmunu haqqında danışın.

**1** Şeirin birinci bəndini hecalara ayıraraq köçürün.

**2** Şeirin üçüncü bəndində *kim?* sualına cavab verən sözləri cümlədə işlədib yazın.

**3** Dövlət rəmzlərimiz haqqında bildiklərinizi söyləyin.

**Azərbaycan Respublikasının Dövlət Himni**

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

**4** Güllərin adını söyləyin və cümlədə işlədib yazın.

**5** Hansı atalar sözündə *kim?* sualına cavab verən söz var?

a) Tək əldən səs çıxmaz.
b) Hər ağac öz dibinə kölgə salar.
c) İgid ölər, adı qalar.



## 6 Uyğunluğu müəyyən edib köçürün.

| | | | |
|---|---|---|---|
| ağac | ev | müəllim | paltar |
| insan | torpaq | əsgər | yemək |
| balıq | budaq | həkim | sinif |
| quzu | dəniz | aşpaz | vətən |
| yarpaq | çəmən | dərzi | xəstə |

## 7 Şəkillər haqqında danışın.

## 8 Hansı bənd cümlədir?

a) Şəhid
b) Şəhidlər heç vaxt
c) Şəhidlər heç vaxt unudulmur.

**Xatırlayaq**

Cümlə bitmiş bir fikri ifadə edir.

## 9 Vətən sözünü hansı sıradakı sözlə əvəz etmək olar?

*1) yurd* *2) el-oba* *3) şəhər* *4) mülk* *5) ev*

a) 1, 2 b) 5, 4 c) 3, 5

**10** Cədvəlin hər xanasına suallara uyğun sözlər yazın.

| *Kim?* | *Nə?* | *Hara?* |
|---|---|---|
| | | |
| | | |
| | | |

**11** Nöqtələrin yerinə uyğun gələn hərfləri əlavə edib köçürün.

| | | |
|---|---|---|
| şə..id | düş..ən | hi..n |
| v..tən | Azər..aycan | ge..b |
| torp..q | öv..ad | əs..ər |
| qərən..il | Ba..ı | döy..ş |
| ig..d | bay..aq | sü..h |

**12** Mətnin sonuncu bəndini köçürün, qalın saitlərin altından bir, incə saitlərin altından iki xətt çəkin.

**13** Şəkillərdən istifadə edərək söz sırasını tamamlayıb köçürün.

- ***Vətən, rəmz, gerb .....***
- ***Kitab, qələm, dəftər .....***
- ***Kəpənək, ağcaqanad, milçək .....***
- ***Bənövşə, lalə, nərgiz .....***

**14** Hansı sözlər həmişə böyük hərflə yazılır?

azərbaycan lalə bakı don
qafqaz kitab nərgiz şuşa
qələm qənd abbas rəndə

# ÜÇ OĞLAN

Üç oğlan meşəyə getmişdi. Doyunca gəzdilər, günün necə keçdiyindən xəbər tutmadılar. Evə qayıtmaq istəyəndə qorxuya düşdülər. Axı evdə onları danlayacaqlar.

"Nə edək, evdə düzünü deyək, yoxsa bir şey uydurаq?" – deyə fikirləşdilər.

– Mən deyəcəyəm ki, guya canavar bizə hücum etmişdi, – deyə birinci oğlan dilləndi. – Onda atam sevinər ki, sağ-salamatam. Yəqin ki, bir söz deməz.

– Mən isə deyəcəyəm ki, babamla rastlaşmışdım. Ona görə gecikdim. Atamla anam sevinər və məni danlamazlar.

– Mən isə düzünü deyəcəyəm, – deyə üçüncü oğlan dilləndi. – Doğru danışmaq həmişə asan olur. Ona görə ki, uydurmaq lazım gəlmir.

Onlar ayrıldılar.

Birinci oğlan evə gəlib canavar haqqında uydurmasını təzəcə söyləmişdi ki, meşəbəyi gəlib çıxdı. O dedi:

– Sən nə danışırsan, ay bala, bizim meşədə canavar nə gəzir?!

Ata dilxor oldu. Oğlunun gecikməsinə görə narahat olmuşdusa, yalan danışmasına görə ikiqat kədərləndi.

İkinci oğlan babasını gördüyünü təzəcə söyləyib qurtarmışdı ki, qapı açıldı, baba içəri girdi. Ana işin nə yerdə olduğunu anladı. Oğlunun yalan danışdığını başa düşüb lap hirsləndi.

Üçüncü oğlan evə gələn kimi günahını boynuna alıb üzr istədi. Atası başını bulasa da, onu bağışladı.

*Valentina Oseyevanın "Nə daha asandır" əsərinin motivləri əsasında*

? Uşaqlar nə üçün yalan danışdılar?
? Kim yalan danışmadı?
? İkinci oğlanın yalanı necə idi?
? Yalan danışmaq uşaqlara xeyir verdi?

**1** Hansı atalar sözü mətnin məzmununa uyğundur?

- ***İşləməyən dişləməz.***
- ***Yalançının şahidi yanında olar.***
- ***İgid ölər, adı qalar.***
- ***Az danış, çox iş gör.***

**2** Mətnin sonuncu abzasını öz sözlərinlə ifadə edin.

**3** Mətndən beş *kim?* sualına cavab verən söz seçib cümlədə işlədib yazın.

**Bunları bilməliyik**

**Sözün ümumi mənası**

Bir çox sözlər ümumi məna altında birləşir.

*Məsələn:*

meyvə → alma, armud, ərik, alça

peşə → müəllim, həkim, dülgər, mühəndis

**4** Sözlərin aid olduğu ümumi məna qrupunu müəyyən edin.

müəllim, həkim, dərzi, aşpaz → _____

pomidor, xiyar, kələm, soğan → _____

avtobus, qatar, vertolyot → _____

**5** Hansı bənddəki şəkilləri bir sözlə adlandırmaq olar?

a)

b)



c)

d)

**6** Sözləri köçürün. *Hara?* sualına cavab verən sözlərin altından xətt çəkin.

| | | | | |
|---|---|---|---|---|
| alma | rəssam | qarpız | Quba | qoz |
| Azərbaycan | qırmızı | doqquz | Amerika | çiyələk |
| İtaliya | sir | Anar | Türkiyə | Şəki |

**7** Altından xətt çəkilmiş sözləri bir sözlə əvəz edib cümlələri köçürün.

*1. Aynur, Lalə, Nigar bizə gəldi.*

*2. Tural, Orxan, Pərviz, Namiq futbol oynadılar.*

*3. Zooparkda çoxlu ayı, dəvə, ilan, şir var idi.*

*4. Köynəyin üstündə bir, iki, üç, dörd şəkli var idi.*

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1** Verilmiş şəkillər hansı mətnlərə aiddir?

**2** *"Yaxşılığa yaxşılıq"* mətnində oğlanların adlarını cümlədə işlədib yazın.

**3** *"İki alma"* mətnində Sevdanın hərəkətlərini öz sözlərinizlə ifadə edin.

**4** Şeirin ardını siz söyləyin.

Sinə gərib dünyanın,
Payızına, qışına.

**5** *"Üç oğlan"* mətnində üçüncü oğlan haqqında danışın.

**6** Hansı sütunlarda sözlər səhv yazılıb?

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| ehtiyac | təyyarə | səyahət | tokda |
| düşpərə | aşpaz | qəhrəman | qarmax |
| camat | dovğa | həyəcan | kiprik |

**7** Hansı sözlərdə hecaların biri yalnız bir səsdən ibarətdir?

ana | etibar | işarə

səs | xoşbəxt | bərəkət

ümid | aypara | səadət

**8** *"İki alma"* mətnində *kim?* sualına cavab verən sözləri cümlədə işlədib yazın.

**9** Şəkillərin ümumi mənalarını söyləyin.

a)

b)

c)

d)

**10** Verilmiş cümlələrdə əlamət bildirən sözləri seçib yazın.

***1) Qarğadan gözəl quş istədilər, balasını göstərdi.***

***2) Yaxşı at özünə qamçı vurdurmaz.***

***3) Yırtıq tor ilə balıq tutmaq olmaz.***

***4) Artıq tamah baş yayar, daş qayıdar baş yarar.***

BURAXILIŞ MƏLUMATI

*Xüsusi məktəblərin*
*4-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış*
*Azərbaycan dili fənni üzrə dərslik*
*I hissə*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Aygün Qasımova** |
| | **Farizə Nəbiyeva** |
| | **Yeganə Məmmədəliyeva** |
| | **Həbib Kərimov** |
| | **Könül Doxolova** |
| | **Süleyman Kərimov** |
| Layihə rəhbəri | **Rəhilə Soltanqızı** |
| Dizayner | **Cəmilə Məmmədova** |
| Texniki redaktor | **Ruslan Mahmudov** |
| Rəssam | **Anara Hüseynova** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2024-014**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab nəşriyyat həcmi: 11,5. Fiziki çap vərəqi 12,75. Səhifə sayı 102.
Kəsimdən sonra ölçüsü: 220x275.
Kağız formatı 70x100 $^{1}/_{8}$. Ofset kağızı. Ofset çapı.
Şriftin adı və ölçüsü: Cambria, 14-18 pt.
Sifariş 85. Tiraj: 750. Pulsuz. Bakı - 2024

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 06.05.2024**

Çap məhsulunu hazırlayan:
**Çaşıoğlu Ei MMC**
Bakı ş., M. Müşfiq küç., 2 A.

Çap məhsulunu istehsal edən:
**Çaşıoğlu Ei MMC**
Bakı ş., M. Müşfiq küç., 2 A.

# PULSUZ

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!